**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# "İnkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf problemləri: Azərbaycan nümunəsi" mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Hümbətov Nurlan Rövşən**

**BAKI – 2020**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**
**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**
**______________________imza**
**"___" ____________ 2020-ci il**

**"İnkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf problemləri: Azərbaycan nümunəsi" mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı:**

**İxtisaslaşma:** İqtisadiyyatın tənzimlənməsi

**Qrup:** 22


**Magistrant:**
**Hümbətov Nurlan Rövşən oğlu**
**___________________imza**

**Elmi rəhbər:**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**
**_____________________ imza**

**Proqram rəhbəri:**
**i.ü.f.d., dos. Hümbətova Suqra İnqilab qızı**
**_____________________ imza**

**Kafedra müdiri:**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**
**_____________________ imza**


**Bakı - 2020**

**Elm andı**

Mən, Hümbətov Nurlan Rövşən oğlu and içirəm ki, "İnkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf problemləri: Azərbaycan nümunəsi" mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

**“İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİN İQTİSADİ İNKİŞAF PROBLEMLƏRİ: AZƏRBAYCAN NÜMUNƏSİ”**

## XÜLASƏ

**Tədqiqatın aktuallığı: İqtisadi ensiklopediyalarda iqtisadi inkişaf geniş istehsal və iqtisadiyyatdakı tədricən keyfiyyət və struktur dəyişiklikləri, böyümə və inkişaf amilləri, həyat səviyyəsi və həyat keyfiyyəti, habelə insan kapitalı kimi müəyyən edilir. Müasir dünyada ölkələrin iqtisadi inkişafı xarakterizə edən göstəricilərin sayı müxtəlif və çoxçeşidlidir. Bu göstəriciləri dəyərləndirməzdən öncə iqtisadi inkişafın özünün mahiyyətinə varmaq gərəkli sayılır. İqtisadi ensiklopediyalarda iqtisadi inkişaf geniş təkrar istehsal və iqtisadiyyatın, məhsuldar qüvvələrin, artım və inkişaf amillərinin, elmin, təhsilin, mədəniyyətin, əhalinin həyat səviyyəsinin və keyfiyyətinin, habelə insan kapitalının tədricən keyfiyyət və struktur dəyişikliklərini əks etdirən proses olaraq təyinat alır.**

**Tədqiqatın məqsədi: Tədqiqatın məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişafındakı problemləri Azərbaycan nümunəsində təhlil etməkdir.**

**İstifadə olunmuş tədqiqat metodları: Müşahidə, müqayisəli analiz, təhlil və s. Kimi tədqiqat metodları.**

**Tədqiqatın informasiya bazası: Tədqiqat bazası dərsliklərdən, məqalələr məlumatlarından, internet resursları məlumatlarından və s. İstifadə edilmişdir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədqiqat mövzusunu, xüsusən də Azərbaycan vəziyyətində daha dərindən öyrənmək üçün məlumat bazası yetərli deyil.**

**Tədqiqatın elmi yeniliyi və praktiki nəticələri: Ümumiyyətlə, tədqiqat mövzusunun əsas əhəmiyyəti inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf problemlərinin təhlilidir.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr:**

**- Azərbaycanın iqtisadi inkişafının əsas göstəriciləri təhlil edildi;**

**- Dövlətin sosial-iqtisadi siyasətinin iqtisadi inkişafa təsiri qiymətləndirildi;**

**- Neftdən sonrakı dövrdə Azərbaycanın iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi istiqamətləri qiymətləndirildi və s.**

**Açar sözlər: iqtisadi inkişaf, iqtisadiyyat, neftdən sonrakı dövr, qloballaşma**

# “PROBLEMS OF ECONOMIC DEVELOPMENT OF DEVELOPING COUNTRIES: THE EXAMPLE OF AZERBAIJAN”


## SUMMARY

**The actuality of the subject: Economic encyclopedias define economic development as broad production and gradual qualitative and structural changes in the economy, growth and development factors, living standards and quality of life, as well as human capital. In the modern world, the number of indicators that characterize the economic development of countries is diverse and diverse. Before assessing these indicators, it is necessary to get to the essence of economic development. In economic encyclopedias, economic development is defined as a process of extensive reproduction and gradual qualitative and structural changes in the economy, productive forces, growth and development factors, science, education, culture, living standards and quality of life, as well as human capital.**

**Purpose and tasks of the research: The purpose of the study is to analyze the problems of economic development of developing countries on the example of Azerbaijan.**

**Used research methods: Work research methods such as observation, comparative analysis, analysis, etc.**

**The information base of the research: The research database consists of textbooks, articles information, internet resources information and etc. was used.**

**Restrictions of research: Insufficient database for a more thorough study of the research topic, especially in the case of Azerbaijan.**

**The novelty and practical results of investigation: In general, the main importance of the research topic is the analysis of economic development problems of developing countries.**

**Scientific-practical significance of results:**

**- The main indicators of Azerbaijan's economic development were analyzed;**

**- The impact of the state's socio-economic policy on economic development was assessed;**

**- The directions of improving the economic development model of Azerbaijan in the post-oil period were assessed and etc.**

**Key words: economic development, economy, post-oil period, globalization**

# İXTİSARLAR VƏ İŞARƏLƏR

| | |
|---|---|
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **BƏƏ** | Birləşmiş Ərəb Əmirliyi |
| **MG** | Milli Gəlir |
| **NAFTA** | North American Free Trade Agreement |
| **TMŞ** | Trans Milli Şirkət |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜMM** | Ümumi Milli Məhsul |

## MÜNDƏRİCAT

**GİRİŞ............................................................. 8**

**I FƏSİL. İQTİSADİ İNKİŞAFIN VƏ İNKIŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİN İNKİŞAF PROBLEMLƏRİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI............................................................. 11**

1.1. İqtisadi inkişafın nəzəri əsasları, konsepsiyaları və modelləri ........................ 11

1.2. İnkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf problemlərinin elmi əsasları .. 18

1.3. Qloballaşmanın iqtisadi inkişafda olan ölkələrin problemlərinin həllində rolu............................................................. 22

**II FƏSİL. AZƏRBAYCANIN İQTIİADİ İNKİŞAF MODELİNİN MÜASİR VƏZİYƏTİNİN ƏSAS XÜSUSIYYƏTLƏRİ................................................... 29**

2.1. Azərbaycanın əsas iqtisadi inkişaf göstəricilərinin təhlili ............................... 29

2.2. Azərbaycanın neftdən asılı formalaşmış iqtisadi inkişaf modelinin qiymətləndirilməsi............................................................. 36

2.3. Dövlətin sosial-iqtisadi siyasətinin iqtisadi inkişafa təsiri.............................. 42

**III FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF MODELİNİN PERSPEKTİVLƏRİ ............................................................. 49**

3.1. Post-neft dövründə Azərbaycan iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi istiqamətləri............................................................. 49

3.2. Azərbaycan iqtisadiyyatının neftdən asılığının azaldılmasında qeyri-neft sektorunun inkişafının və ixrac potensialının artırılması yolları ........................... 53

3.3. Azərbaycanın iqtisadi inkişafının davamlı olması üçün Strateji Yol Xəritəsində nəzərdə tutulan hədəflər ............................................................. 59

**NƏTİCƏ VƏ TƏKLİFLƏR............................................................. 66**

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI............................................. 70**

Cədvəllərin siyahısı............................................................. 73

Diaqramların siyahısı ............................................................. 73

Şəkillərin siyahısı ............................................................. 73

# GİRİŞ

**Mövzunun aktuallığı:** Müasir dünyada ölkələrin iqtisadi inkişafı xarakterizə edən göstəricilərin sayı müxtəlif və çoxçeşidlidir. Bu göstəriciləri dəyərləndirməzdən öncə iqtisadi inkişafın özünün mahiyyətinə varmaq gərəkli sayılır. İqtisadi ensiklopediyalarda iqtisadi inkişaf geniş təkrar istehsal və iqtisadiyyatın, məhsuldar qüvvələrin, artım və inkişaf amillərinin, elmin, təhsilin, mədəniyyətin, əhalinin həyat səviyyəsinin və keyfiyyətinin, habelə insan kapitalının tədricən keyfiyyət və struktur dəyişikliklərini əks etdirən proses olaraq təyinat alır. Cəmiyyətin iqtisadi inkişafı çoxplanlı proses olub, iqtisadi artımı, innovasiya iqtisadiyyatını və vençur biznesini, iqtisadiyyatda struktur irəliləyişləri, əmək məhsuldarlığının artımını və əhalinin həyat keyfiyyətini əhatə edir. İnkişaf proseslərinin effektivliyi əksərən iqtisadiyyatın dövlət tənzimlənməsinin, dövlətin özünün və onun institutlarının effektivliyi ilə müəyyən olunur.

Dünya ölkələrinin sosial-iqtisadi durumu bir sıra monetar və fiskal parametrlər üzrə də reytinqləşdirilir. Bu sırada hər hansı bir dövlətin borcunu əks etdirən Xarici borc reytinqidır. Dövlət Borcu Reytinqi bir qədər ön sırada dayanır. Dövlət Borcu Reytinqi dövlət borcunun ÜDM-dəki payını əks etdirən reytinq göstəricisidir. Dövlət borcu büdcə defisitini bağlamaq üçün dövlətin maliyyə əvəzləmələrinin nəticəsi olaraq büdcə profisiti çıxılmaqla ötən illərin kəsrləri məbləğlərinin məcmusuna bərabərdir. Dövlət borcu göstəricisi ölkənin maliyyə müstəqilliyini xarakterizə edir.

Bütün bunlarla yanaşı dövriyyədə ölkələrin inkişaf səviyyəsini xarakterizə edən bir sıra digər reytinq və indeks göstəricilərindən də istifadə olunur. Bütün bu hesabatlandırmalarda Azərbaycan Respublikasının da iqtisadi inkişaf səviyyəsi əksini tapır.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi:** Müasir şəraitdə inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf problemləri və onun Azərbaycan nümunəsində araşdırılması tədqiqatçılar tərəfindən tədqiq edilmiş və edilməkdədir. Mövzu ilə bağlı fikirlərə bir çox alimlərin əsərlərində rast gəlmək mümkündür. Əliyev A., Şəkərəliyev A., Dadaşov İ., Əliyev H.Ə., Hacızadə E.M., Bağırzadə E.R., Tərxan

P., Боброва В.В., Веснин В.Р., Кальвина Ю.И., Цыпин И.С., Кудров В.М., Ломакин В.К., Татарников Е.А., Хасбулатов, Р. И. , Якобсон А. Я., Максимчук Л.В., Максимов И.М. və başqaları mövzu ilə əlaqədar bir çox əsərlərin, monoqrafiyaların müəlliflərindəndirlər.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədini inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf problemlərinin Azərbaycan nümunəsində təhlil etmək təşkil edir.

Məqsədin reallaşdırılması üçün aşağıdakı vəzifələr yerinə yetirilməlidir:

- İqtisadi inkişafın nəzəri əsaslarının araşdırılması, modellərini təhlil etmək;
- İnkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf problemlərinin elmi əsaslarının verilməsi;
- Qloballaşmanın iqtisadi inkişafda olan ölkələrin problemlərinin həllində rolunun araşdırılması;
- Azərbaycanın əsas iqtisadi inkişaf göstəricilərinin təhlil edilməsi;
- Azərbaycanın neftdən asılı formalaşmış iqtisadi inkişaf modelinin qiymətləndirilməsi;
- Dövlətin sosial-iqtisadi siyasətinin iqtisadi inkişafa təsirinin qiymətləndirilməsi və s.

**Tədqiqatın obyekti və predmeti:** Tədqiqatın obyekti inkişaf etməkdə olan dövlətlərin iqtisadi inkişaf problemləri, predmeti isə inkişaf etməkdə olan dövlətlərin iqtisadi inkişaf problemlərinin Azərbaycan nümunəsində təhlil edilməsidir.

**Tədqiqat metodları:** Tədqiqat işinin araşdırılması və təhlil olunması edilməsi məqsədilə mövzu yazılarkən müşahidə, müqayisəli təhlil, məntiqi ümumiləşdirmə, analiz və s. kimi tədqiqat üsullarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası:** Tədqiqatın informasiya bazası olaraq mövzu ilə bağlı dərs vəsaitlərindən, məqalə və qəzet məlumatlarından, internet resurslarından, rəsmi sayt məlumatlarından və s. istifadə olunmuşdur.

**Tədqiqatın məhdudiyyətləri:** Tədqiqat mövzusunun daha mükəmməl şəkildə tədqiq edilməsi, xüsusilə Azərbaycan nümunəsində təhlil edilməsi üçün məlumat bazasının kifayət qədər olmaması.

**Tədqiqatın elmi yeniliyi:** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

- İqtisadi inkişafin və inkişaf etməkdə olan ölkələrin inkişaf problemlərinin nəzəri-konseptual əsasları verilmişdir;
- İqtisadi inkişafın modelləri qiymətləndirilmişdir;
- Qloballaşmanın iqtisadi inkişafda olan ölkələrin problemlərinin həllində rolu dəyərləndirilmişdir;
- Azərbaycanın əsas iqtisadi inkişaf göstəriciləri təhlil edilmişdir;
- Dövlətin sosial-iqtisadi siyasətinin iqtisadi inkişafa təsiri qiymətləndirilmişdir;
- Post-neft dövründə Azərbaycan iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi istiqamətləri dəyərləndirilmişdir;
- Azərbaycanın iqtisadi inkişafının davamlı olması üçün Strateji Yol Xəritəsində nəzərdə tutulan hədəflər nəzərdən keçirilmişdir.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri:** Ümumi nəticə olaraq tədqiqat mövzusunun başlıca praktiki əhəmiyyəti inkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf problemlərinin təhlilidir.

# I FƏSİL. İQTİSADİ İNKİŞAFIN VƏ İNKIŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRİN İNKİŞAF PROBLEMLƏRİNİN NƏZƏRİ-KONSEPTUAL ƏSASLARI

## 1.1. İqtisadi inkişafın nəzəri əsasları, konsepsiyaları və modelləri

İqtisadi inkişaf- istehsal qüvvələri və iqtisadiyyat, elm və mədəniyyətin, təhsilin, insanların həyat səviyyəsinin struktur və keyfiyyət baxımından müsbət istiqamətdə dəyişməsiylə xarakterizə edilən iqtisadi bir prosesdir. İqtisadi inkişaf həmçinin ictimai əlaqələrin inkişafını da nəzərdə tutur, buna görə də tarixən formalaşan maddi və texnoloji nemətlərin bölgüsünün müxtəlif cür sistemlərində bir-birindən fərqlənir.

Dövlətin iqtisadi inkişafının başlıca göstəriciləri aşağıdakılardır:

1. əhalinin həyat səviyyəsi;
2. iqtisadiyyatın rəqabət qabiliyyəti;
3. ölkənin ümumi daxili məhsulu;
4. ölkənin ümumi milli məhsulu;
5. adambaşına insan kapitalı;
6. iqtisadi azadlıq indeksi.

İqtisadi inkişafın əsas hərəkətverici qüvvəsi insan kapitalı və yaratdığı yeniliklərdir. İnsan kapitalına təhsil, səhiyyə, elm, iş şəraiti və insanların həyat səviyyəsinə yüksəldilməsinə çəkilmiş xərclər aiddir. İstənilən ölkənin iqtisadi inkişafı hesabat vermə mövzusundan kənardır. Bir çox ölkələr öz səviyyələrini ABŞ ilə müqayisə etməyə meyllidirlər. Bu cür müqayisələr səhv hesab olunur, çünki təhlilin həcmini tam əks etdirmirlər. Buna görə ümumi qəbul edilmiş iqtisadi meyarlar istifadə olunur (Hacızadə E.M., 2006: s.5).

Ölkənin iqtisadi inkişafının göstəriciləri qismində Ümumi Daxili Məhsul, Ümumi Milli Məhsul (ÜMM) və Milli Gəlir (MG), ÜDM-in adambaşına düşən miqdarı, əhalinin həyat səviyyəsinin keyfiyyəti və səviyyəsi, iqtisadiyyatın rəqabətqabiliyyətliliyi, insan kapitalı və iqtisadi azadlıq indeksləri çıxış edirlər. Bu göstəricilər sırasında ÜDM, ÜMM və MG ön mövqedə dayanaraq mütləq

göstəricilər hesab olunur. Ölkənin iqtisadi inkişafının müəyyən edilməsində mütləq göstəricilərlə yanaşı struktur göstəricilərdən də istifadə olunur. Struktur göstəricilər iqtisadiyyatın müəyyən sektorlarında məşğulluğun nisbəti və yanacaq-enerji balansının strukturu, nəqliyyat növləri üzrə daşınmalar və s. ehtiva edir. Bundan başqa bu sferada sosial təyinatlı göstəricilər də yer alır. Həmin göstəricilər sosial infrastruktur elementlərini əks etdirərək əhalinin həyat keyfiyyətinin yüksəlişi, rifahı və uzunömürlülük səviyyəsinin artımı, sağlam, aktiv yaradıcı nəslin formalaşması və təkrar istehsalı səciyyələndirilir. Sosial göstəricilər həm də geniş çevrədə sosial siyasətin əsas məqsədlərində ifadə olunan insan inkişafı indeksi, savadlılıq faizi, informatizasiya səviyyəsi, korrupsiyanın yayılması və kölgə iqtisadiyyatı kimi indikatorlarla da əks olunur. Bununla yanaşı, ölkənin iqtisadi inkişafı, həm də onun dünya təsərrüfatı sistemində iştirakı, inteqrasiyasının bir sıra göstəriciləri ilə xarakterizə edilir. Bu sırada ixrac, idxal və xarici ticarət kvotası, ölkənin xarici ticarət dövriyyəsi və onun dünya ticarət dövriyyəsində xüsusi çəkisi, adambaşına düşən xarici ticarət dövriyyəsi, kapitalın beynəlxalq miqrasiyası proseslərində ölkənin xüsusi çəkisi və digər bu kimi göstəricilər daha mühüm hesab olunur (Hacızadə E.M., 2006: s.3).

Millətlərin iqtisadi həyatının beynəlmiləlləşdirilməsi obyektiv bir prosesdir və nəticədə yüksək iqtisadi səmərəliliyi səbəbindən dünya iqtisadiyyatının inkişafı üçün şərait yaradan milli iqtisadiyyatda vacib amilə çevrilir. Düzdür, 21-ci əsrin əvvəllərində də beynəlxalq iqtisadi mübahisələr və müxtəlif münaqişələr və qalmaqdadır və bu cür münaqişələrin illərlə davam edəcəyi düşünülür (Əliyev A., Şəkərəliyev A., Dadaşov İ., 2003: s.117). Ancaq indiki qarşılıqlı asılılıq elə bir səviyyəyə çatdı ki, heç bir ölkə qlobal iqtisadiyyata öz iqtisadi maraqlarını qarşı qoya bilməz. Bu yolu seçməyə qərar verən hər bir ölkə böyük iqtisadi itkilərlə qarşılaşır. Bu çox vacib bir məsələdir. Məhz bu cəhət iqtisadi səmərəliliyin əldə olunması və dünya iqtisadiyyatının optimal idarə olunması və inkişafı üçün lazımi şərait yaradır.

Beləliklə, beynəlmiləlləşmə və onun qloballaşması dünyada iqtisadi inkişafın hərəkətverici qüvvəsinə çevrildi. Bu prosesin iqtisadi təsiri yalnız iqtisadi sektorlarla məhdudlaşmır. Beynəlmiləlləşmə qloballaşdıqca siyasətə təsir edən güclü bir amilə

çevrilir. Dünya iqtisadiyyatı bir-birinə o qədər bağlı və bir-birindən asılıdır ki, heç bir dövlət son nəticədə siyasi balanssızlıqda maraqlı deyil. Bu yanaşmanın əsası son onilliklərdə iqtisadi, siyasi və hərbi proseslərin bütövlükdə fəaliyyət göstərmə meylidir. Buna görə inkişaf etmiş ölkələr qloballaşma və beynəlmiləlləşmədən daha çox fayda əldə edə bilərlər.

**Cədvəl 1: Dünya ölkələrini qlobal indeks və reytinqlərlə dəyərləndirən beynəlxalq təşkilatlar və qurumlar**

| № | Təşkilatın adı | Yaranma tarixi | Məlumat bazasının adı |
|---|---|---|---|
| 1 | İsveçrə İqtisad İnstitutu | 2002 | Qloballaşma İndeksi |
| 2 | BMT (İqtisadi və Sosial İşlər Departamentinin Əhali Artımı şöbəsi) | 1945 | Dünya əhali artımının perspektivləri |
| 3 | BMT-nin İnkişaf Proqramı | 1965 | İnsan İnkişafı Hesabatı |
| 4 | Beynəlxalq Valyuta Fondu - BMT-nin ixtisaslaşmış təsisatı | 1945 | Dünyanın iqtisadi perspektivləri üzrə məlumat bazası |
| 5 | İnkişaf etməkdə olan ölkələrə texniki və maliyyə yardımı göstərən beynəlxalq maliyyə təşkilatı | 1945 | Dünyanın inkişafı göstəricilərinin məlumat bazası |
| 6 | ABŞ-n Mərkəzi Kəşfiyyat İdarəsi | 1947 | Faktlar üzrə dünya kitabı |
| 7 | Dünya İqtisadi Forumu - Dünyanın mühüm problemlərinin müzakirəsi üçün təşkil edilmiş İsveçrə (Davos) qeyri-hökumət (beynəlxalq status qazanmış) təşkilatı | 1971 | Qlobal rəqabətqabililiyyətlilik Hesabatı |
| 8 | "İrs" fondu. ABŞ-ın Strateji Tədqiqatlar İnstitutu | 1973 | İqtisadi azadlıq indeksi |
| 9 | "Merser" - İnsan resursları və maliyyə xidmətləri üzrə konsaltinq kompaniyası | 1975 | Həyat Bahalılığı Reytinqi |
| 10 | Maliyyə bazarında analitik tədqiqatlıar aparan kompaniya (ABŞ) | 1860 | Kredit reytinqi |

**Mənbə:** http://etsim.az/upload/Image/2015, 2015

Beynəlmiləlləşməsi və onun genişlənməsi həm birbaşa, həm də müxtəlif istiqamətlərdə iqtisadi və sosial fayda gətirir. Xarici kapital, yeni texnologiyalar, inteqrasiya və iqtisadi inkişaf naminə dünya bazarına çıxış məhsuldar amillər rolunu oynayır. Başqa bir məqamı da qeyd etmək lazımdır. Bu, qlobal beynəlmiləlləşmə prosesində bütün ölkələr üçün başa düşülən və bərabər olan qanunlar paketinin işlənib hazırlanması və həyata keçirilməsidir. Məhz qayda və qanunlar toplusu

şərait yaradır ki, əvvəllər ancaq TMK üçün mümkün olan xarici əməliyyatlar, eləcə də milli dövlətlərin kompaniyaları tərəfindən yerinə yetirilə bilsin. Müasir reallıqlar belədir ki, qloballaşmanın sürətlə genişləndiyi bir dövrdə dünya ölkələri öz inkişaf səviyyələrini də bu axının pozitiv meyilləri üzərində qurmaq məcburiyyətində qalırlar. Bu çevrədən ölkələrin sosial-iqtisadi inkişafı bir çox müvafiq sahədə ixtisaslaşmış beynəlxalq təşkilatlar tərəfindən qlobal indeks və reytinqlərlə dəyərləndirilir.

Hazırda aşağıdakı beynəlxalq təşkilatlar və qurumların reytinq araşdırmaları daha öncül sayılır.

Ölkələrin qloballaşma prosesinə qoşulması Qloballaşma İndeksi (KOF, Globalizatio Index) ilə hesablanır. Qloballaşma indeksi iki ayrı mənbə - KOF İsveçrə İqtisad İnstitutu və Xarici Siyasət Jurnalı tərəfindən hazırlanmışdır. Ancaq bunlar arasında ən əhatəlisi və məşhur olanı KOF İsveçrə İqtisad İnstitutu tərəfindən hazırlanan KOF Qloballaşma. KOF Qloballaşma İndeksi həm yekun qloballaşma indeksi, həm də onun alt-indeksləri olan iqtisadi qloballaşma, siyasi qloballaşma və sosial qloballaşma indeksləri üzrə ölkələrin reytinqini müəyyən etməyə imkan verir. Bütün indekslər 1-100 bal arası sistemlə qiymətləndirilir. 100 bal ən yüksək qloballaşma, 1 bal isə ən zəif qloballaşma səviyyəsini ifadə edir (Hacızadə E.M., Bağırzadə E.R., 2011: s.110).

Ölkələrin dünya çapında rolunu dəyərləndirən iqtisadi göstəricilər sırasında Rəqabətlilik Reytinqi də mühüm əhəmiyyət kəsb edir. Ölkələrin Rəqabətlilik Reytinqi Dünya İqtisadi Forumu tərəfindən hər il yayımlanan “Qlobal Rəqabətlilik Hesabatı” çərçivəsində hazırlanan Qlobal Rəqabətlilik İndeksinə əsaslanır. Qlobal Rəqabətlilik İndeksi ölkə iqtisadiyyatlarının əsas müqayisəli üstünlüklərinin və çatışmazlıqlarının müəyyən edilməsinə imkan verən 12 meyar-“institutlar”, “infrastruktur”, “makroiqtisadi mühit”, “sağlamlıq və ibtidai təhsil”, “ali təhsil və peşə təhsili”, “əmtəə bazarının səmərəliliyi”, “maliyyə bazarının inkişafı”, “texnoloji hazırlıq”, “bazarın miqyası”, “biznesin inkişafı”, “innovasiya” və hər meyar üzrə alt indekslər əsasında tərtib edilir.

Qloballaşma reytinqləri sırasında Dünya İdarəetmə İndeksi Reytinqinə də önəm verilir. Dünya İdarəetmə İndeksi Yeni Dünya İdarəetmə Forumu tərəfindən dünyada idarəetmənin mövcud səviyyəsini və təkamülünü qiymətləndirmək məqsədilə tərtib edilir. İndeks 5 əsas göstərici-"sülh və təhlükəsizlik", "qanunun aliliyi", "insan hüquqları və iştirakçılıq", "davamlı inkişaf", "insan inkişafı" və alt-göstəricilər əsasında formalaşdırılır. İndeksin hesablama metodu BMT-nin İnsan Hüquqları İndeksinin hesablanma metodu ilə oxşardır. Yekun göstərici 0 (ən zəif) və 1 (ən yüksək) bal ilə ifadə olunur. Dünya İdarəetmə İndeksi çərçivəsində həmçinin bu indeksi təşkil edən əsas göstəricilər üzrə də ölkənin reytinqi tərtib edilir. İndeksin hazırlanmasında istifadə olunan məlumatlar müxtəlif beynəlxalq təşkilatlar və bəzi transmilli konsaltinq şirkətlərinin hesabat və araşdırmalarından əldə edilir (Hacızadə E.M., Bağırzadə E.R., 2011: s.7).

Müstəqil Fondların Linaburg-Maduell Şəffaflıq İndeksinin də ölkələr reytinqinin ölçülməsində özünəməxsus yeri vardır. Linaburg-Maduell Şəffaflıq İndeksi ölkələrdə müstəqil zənginlik fondlarının şəffaflıq reytinqini müəyyənləşdirən, İsveçrənin Suveren Zənginlik Fondu İnstitutunda Carl Linaburg və Michael Maduell tərəfindən formalaşdırılmış reytinq göstəricisidir.

Hazırda İnstitutun davam edən layihələrindən biridir. Bu indekslə ölkələrin müstəqil zənginlik fondlarının şəffaflıq səviyyəsi 10 ballıq sistem çərçivəsində qiymətləndirilir. 1 bal minimum səviyyəni, 10 bal isə maksimum səviyyəni göstərir. İnstitut bir fondun məqbul şəffaflıq səviyyəsində olması üçün ən azı 8 bal almasının zəruri olduğunu tövsiyə edir (Hacızadə E.M., Bağırzadə E.R., 2011: s.7).

Ölkələrin maliyyə-iqtisadi qüdrəti bir sıra ixtisaslaşmış beynəlxalq təşkilatlar tərəfindən hesabatlandırılan kredit reytinqləri ilə hesablanır. Bu hesablamalar əsasən üç agentlik - "Standard & Poor's", "Fitch", "Moody's" tərəfindən həyata keçirilir. "Standard ənd Purs" şirkətinin Kredit Reytinqləri maliyyə xidmətləri göstərən "Standard & Poor's" agentliyi tərəfindən hazırlanan kredit reytinqləridir. "Standard & Poor's", "BBB-" və ondan yüksək kredit reytinqinə malik qiymətli kağızları investisiyaya münasib dərəcəyə, "BB+" və ondan aşağı kredit reytinqinə malik qiymətli kağızları isə spekulyativ dərəcəyə aid edir. "Fitç Reytinq" LTD-nin Kredit

Reytinqi beynəlxalq kredit bazarlarına kreditqabiliyyətliliyi üzrə müstəqil və əsaslandırılmış qiymətləndirmələr təqdim edən “Fitch Ratings” LTD beynəlxalq agentliyinin kredit reytinqidir. Fitch qiymətləndirmə metodologiyası “Standard & Poor's” qiymətləndirmə metodologiyası ilə oxşardır. “Mudis” şirkətinin kredit reytinqləri Moody's şirkəti tərəfindən standartlaşdırılmış reytinq əmsallarından istifadə etməklə borcalanların kredit qabiliyyətliliyini qiymətləndirən reytinq göstəricisidir. 1900-cu ildə Con Mudi tərəfindən təsis edilən Moody`s şirkəti özəl və dövlət təşkilatlarında maliyyə tədqiqatı və təhlillərini həyata keçirir. Dünya kredit reytinqi bazarının 40%-ni əhatə edən şirkət, həmçinin standartlaşdırılmış reytinq əmsallarından istifadə etməklə borcalanların kredit qabiliyyətliliyini qiymətləndirir.

Bir xüsusi cəhəti də vurğulamaq gərəklidir ki, hər hansı bir ölkə iqtisadiyyatının inkişafının və artımının sabitliyini və dayanıqlılığını müəyyən edən ən mühüm göstəriciləri, inkişaf bazası insan kapitalının tərkib hissələrinə tərbiyəyə, mədəniyyətə, təhsilə, elmə, əhalinin həyat keyfiyyətinə qoyulan investisiyalar əhatə edir (Əliyev H.Ə., 2001: s.5).

Hər bir ölkə iqtisadiyyatını inkişaf etdirmək istəsə də, nəticədə fərqli nəticələr əldə edilir. Bazar iqtisadiyyatı yolu ilə gedən ölkələrin iqtisadi inkişafının amilləri və şərtlərinin dərindən öyrənilməsi göstərir ki, qəbul edilmiş iqtisadi inkişaf modelləri bu problemin həllində həlledici rol oynaya bilər. Mülkiyyətin müxtəlif formalarının fəaliyyətdə olduğu hər bir şəraitdə də inkişaf modelləri müxtəlif cür olur.

Rusiya Federasiyasının Sahibkarlıq fəaliyyəti və İqtisad Elmlər akademiyasının akademiki olan Kudrovun yazdığı “Dünya iqtisadiyyatı” dlı dərsliyində kapitalist iqtisadiyyatının 5 tipik modeli verilmişdir.

Onun sözlərinə görə, ilk model ABŞ-da istifadə olunur. Bu model özünü tənzimləyən bazar mexanizmi olan, dövlət mülkiyyətinin az hissəsi və istehsal və xidmətlərin göstərilməsinə müdaxilənin zəif olduğu bir iqtisadiyyata əsaslanır. Modelin əsas üstünlükləri, dəyişən bazar şərtlərinə tez uyğunlaşa biləcək çevik iqtisadi mexanizmin olması və kapitaldan daha səmərəli istifadə üçün geniş imkanlar sayəsində yeniliyə yönəlmiş yüksək səviyyəli sahibkarlıq fəaliyyətidir. Bu model

yüksək inkişaf etmiş məhsuldar qüvvələr, böyük daxili və xarici bazarlar və yüksək həyat səviyyəsi şəraitində daha təsirli olur.

İkinci model Almaniyada, İsveçdə və Fransada Birinci Dünya Müharibəsindən sonra meydana gəldi. Bu model bütün dünyada sosial yönümlü bazar iqtisadiyyatı kimi tanınır. Modelin xüsusiyyətlərinə dövlətin milli bazar iqtisadiyyatına fəal təsir göstərməsi, güclü sosial təminat və ÜDM-də dövlət mülkiyyətinin böyük hissəsi daxildir. Bu modelin yüksək səmərəli olması üçün əmək və kapital arasında çox ciddi bir tarazlıq qorunmalıdır. Belə bir tarazlıq olmadıqda, modelin effektivliyi azalda bilər, əlavə olaraq, ikinci modelin çevikliyi nisbətən aşağıdır və iqtisadi vəziyyətə zəif uyğunlaşmışdır.

Bazar iqtisadiyyatının III modeli Yapon modelidir. Onun başlıca xüsusiyyətlərinə milli məqsədlərin əldə olunması xatirinə kapitalın, dövlətin (sənayeçilərin, maliyyəçilərin, həmkarların, dövlətin) və kapitalın səmərəli və dəqiq qarşılıqlı əlaqəsi, istehsalda patriotluq və kollektivlik, insan amilinə güclü arxalanmaq aiddir. Həmin model Uzaq Şərqdə, xüsusilə Hon-Konqda, Sinqapurda, Cənubi Koreyada, Tayvanda, Cənubi-Şərqi Asiyada iqtisadi inkişaf təcrübələrində çox geniş yayılmışdır.

IV model Latın Amerikasının modelidir. Bu modelin əsas fərqləndirici xüsusiyyətlərinə ölkənin iqtisadiyyata güclü və savadlı olmayan formada birbaşa olaraq müdaxilə etməsi, təsərrüfat əlaqələri də daxil olunaraq cəmiyyətin kriminallaşması, korrupsiya, istehsalın ucuz işçi qüvvəsinə, təbii resurslarına, qabaqcıl ölkələrin irəli sürdüyü tələblərin ilk öncə yerinə yetirilməsini nəzərdə tutmuş istiqamətlərə yönəldilməsi aiddir.

Kapitalist iqtisadiyyatının V modeli Afrika modelidir. Həmin modelin əsasını mülkiyyətin müxtəlif formalarda olması, həmçinin bazar münasibətləri təşkil edir. Afrika modelindən istifadə edən Afrika ölkələrində hər bir şeydən əvvəl savadsızlıq, istər firma və müəssisələr miqyasında, istərsə də ümumilikdə dövlət səviyyəsində təsərrüfata məxsus proseslərinin idarə olunması və tənzimlənməsində müəyyən qədər acizlik gözə dəyir. Hiss edilir ki, inkişaf etmiş ölkələrin köməyi olmazsa onlar müasir iqtisadiyyatlarını qurmaqda çətinlik

çəkərlər. Bu modelinin xarakterik cəhətlərinə "yuxarıları"n güc işlətmək üsullarıyla istehsala və əməyə birbaşa müdaxilə etməsi, ixtisassız əməyin israfçılıqla istismarı, demokratiyanın və əmək münasibətlərinin inkişaf etməməsi, həddinnən artıq aşağı səmərəlik və s. aiddir.

## 1.2. İnkişaf etməkdə olan ölkələrin iqtisadi inkişaf problemlərinin elmi əsasları

"İEOÖ" anlayışı olduqca şərti bir ifadədir və dünya əhalisinin 80 faizdən çoxunu, dünyanın bütün ölkələrinin 4/5-ni birləşdirir.

İEOÖ üçün ümumi əlamətlər aşağıdakılardan ibarətdir:

1. Keçmişə nəzər salsaq görərik ki, bu ölkələr Qərbdən asılı idi;

2. Bu ölkələrin iqtisadi sistemi qeyri-sabitdir;

3. Onlar əsasən inkişaf edən ölkələrin iqtisadiyyatından asılı formadadılar.

İnkişaf etməkdə olan ölkələrin sənayeləşmiş ölkələrdən uzun müddətli "asılılığı", onların ayrı-ayrı inkişaf etməkdə olan ölkələrin qeyri-bərabər iqtisadi inkişafı ilə əlaqəli olan qlobal iqtisadiyyatdakı iştirakına tamamilə ziddir. Bu ölkələr iqtisadi münasibətlərdə iştirak xüsusiyyətlərindən asılı olaraq müxtəlif qruplara bölünür.

İnkişaf etməkdə olan və inkişaf etmiş ölkələr arasındakı iqtisadi potensialdakı real fərqlər bu günün reallıqlarıdır. Ancaq inkişaf etməkdə olan ölkələrin rolunu artırmadan, dünya iqtisadiyyatındakı kəskin problemlər və ziddiyyətlər nəinki azalmayacaq, əksinə artacaqdır. Digər tərəfdən, sənayeləşmiş ölkələrin istehsal, elmi və texniki dəstək baxımından danılmaz iqtisadi üstünlüyü var.

İnkişaf etməkdə olan ölkələr-yüksək olmayan iqtisadi potensiala, zəif inkişaf etmiş iqtisadiyyata, aşağı standartlı xidmət və sosial duruma sahib olan ölkələrdir.

Xarakterik cəhətləri (www.turansam.org › makale, 2010):

1. İqtisadi inkişafın nisbi və mütləq aşağı göstəriciliyi;

2. İqtisadiyyatın çoxukladlı xarakterliyi;

3. Kiçik əmtəəlikdən inhisarçılığa kimi istehsal;

4. Texnoloji və texniki gerilik;

5. Dünya təsərrüfatından asılılıq;

6. İstehsal və sosial infrastrukturu, həmçinin, istehsal gücləri aşağı səviyyəli;

7. Yoxsulluq, yüksək işsizlik və aşağı səviyyəli təhsil;

8. Patriarxal mentalitet,

9. Korrupsiya.

İnkişaf etməkdəki ölkələrdə adətən emal sənayesinin ümumi daxili məhsulda ümumi payı 10%-i keçmir, köhnə düşüncəlilik xasdır, bazar münasibətləri quruculuğu əsasən “immitasiya” xarakterlidir, sənayesi, iqtisadiyyatın digər strukturları bütövlükdə qeyri-mütərəqqi quruluşludurş

İnkişaf etməkdə olan ölkələrin tipologiyası (economics.com.az›item›182-zhloballashma-vae-izhtisadi-millaetdzhilik, 2015):

Zəif inkişaf edən-nisbətən kasıb ölkələr-həmin ölkələrin iqtisadi inkişaf templəri aşağı templidir. Bu tip ölkələrə-Cənubi Asiyanın bəzi, tropik Afrikanın bəzi, Latın Amerikasının bir çox, Okeaniyanın demək olar ki, bütün ölkələri aiddir. Bu ölkələrdə dünyanın ümumi əhalisinin 2,5 faizi yaşayır və onlar qlobal ümumi daxili məhsulun 1 faizini verirlər.

Özləri inkişaf etmiş ölkələr - iqtisadiyyatları nisbi olaraq uğurlu inkişaf etmiş ölkələrdir. Bu ölkələrdə adambaşına düşən gəlirləri orta səviyyəli olan ölkələr - Liviya, Uruqvay, Paraqvay, Tunis və s., adambaşına düşən gəlirləri yüksək olan ölkələr-Bruney, Küveyt, Qətər, Sinqapur, BƏƏ və s. aiddir.

İnkişaf etməkdə olan ölkələrin iqtisadi gerilik probleminin səbəbləri (https://www.academia.edu/38561105/M%C3%B6vzu_13_%C4%B0nki%C5%9Faf_etmi%C5%9F_s%C9%99naye_%C3%B6lk%C9%99l%C9%99rinin_%C3%BCmumi_xarakteristikası, 2016):

Tarixi amillər:

Uzun müddət yarımmüstəmləkə və müstəmlək sistemində yaşamaq.

İqtisadi amillər:

1. çoxukladlılıq,

2. xammalyönümlü iqtisadiyyat;

3. satış bazarının inkişaf edən ökələrdə olması ilə əlaqədar asılılıq;

4. istehsal amillərinin inkişaf dərəcəsinin aşağı olması.

Sosial amilər:

1. məhdud həyat keyfiyyəti və zəif sosial infrastruktur göstəriciliyi.

İnkişaf etməkdə olan ölkələrin iqtisadi gerilik probleminin qlobal xarakteri:

1. demoqrafik;

2. ekoloji;

3. ərzaq;

4. artan xarici borc;

5. inkişaf etmiş ölkələrdən asılılıq;

6. yoxsulluq.

İqtisadi geriliyin ümumi mənzərəsi aşağıdakı kimidir:

İnkişaf etməkdə olan dövlətlərdə 4,8 milyard əhalidən:

1. 1 milyarda qədər insan fəal və sağlam həyat tərzi sürmək məqsədilə kifayət qədər ərzaqlar əldə edə bilmirlər;

2. təxmini 1 milyarda yaxın əhali savadsızdır;

3. 1 milyarddan çox əhali təmiz içməli sudan, istifadə edə bilmir;

4. 2,4 milyard əhali əsas kanalizasiya qurğularından yararlana bilmir;

5. Hər il beş yaşına qədər 11 milyon nəfər uşaq qarşısı alına biləcək xəstəliklərdən tələf olurlar;

6. təxminən 400 milyon uşaq məktəbə gedə bilmir.

İnkişaf etməkdə olan ölkələrdə yoxsulluq problem iqtisadi inkişafa mane olan əsas səbəblərdəndir.

Yoxsulluq:

1. sosial qrupun və ya fərdin təyin edilmiş minimal istehlak tələbləri daxilində əmək qabiliyyətinin saxlanılması, nəslinin davam etdirilməsi məqsədilə iqtisadi vəziyyətinin xarakteristikası.

2. insanların minimal təhsilə, pula, müəyyən nüfuza malik sosial-iqtisadi vəziyyəti.

3. nisbi anlayışdır və uyğun cəmiyyət içərisində həyat səviyyəsi standartından asılıdır.

Dünya təcrübəsində yoxsulluq 3 əsas konsepsiyayla müəyyən olunur:

1. Mütləq;

2. Nisbi;

3. Subyektiv yoxsulluq.

Mütləq yoxsulluğun özü əsas istehlak miniumumu və onların ödənməsini təmin edə bilən resurs ölçüləri ilə müəyyən edilir.

Nisbi yoxsulluq isə rifah göstəricilərinə əsasən konkret dövlətdəki material təminatlılığı səviyyəsi əsasında təyin olunur.

Subyektiv yoxsulluğun özü sorğusu keçirilənlərin tərəfindən təqdim edilən material vəziyyət, yaşyış səviyyəsi göstəricisinə əsaslanmaqdadır.

Yaşadığımız müasir dünyanı zəngin hesab etmək olar. Hazırda qlobal bəşəri qazanc 31$ trilyonu keçmişdir. Dünyada bir qütbdə orta statistik insan il ərzində 40000$ gəlir əldə edir, digər qütbündə də 2,8 milyard adam il ərzində 700$ -dan aşağı, onun isə 1,2 milyardı gün boyu 1$-dan aşağı gəlir qazanır. Bunun nəticəsi olaraq, inkişaf etməkdə olan dövlətlərdə hər gün 33 mindən artıq uşaq, hər dəqiqə doğuş vaxtı bir qadın dünyasını dəyişir. Yoxsulluq 100 milyon uşağın, adətən qızların məktəbə getməsini məhdudlaşdırmaqdadır.

İqtisadi geriliyin ortadan qaldırılması üsulları:

Kompleks yanaşmada dövlətin daxili resurs potensialına istinad etməklə əhəmiyyətli milli təkmilləşmə strategiyalarının formalaşması, təsərrüfat həyatının liberallaşması, aqrar münasibətlərin effektiv təkrar qurulması, təhsil islahatlarının həyata keşirilməsi, səhiyyə sisteminin yaxşılaşması, bərabərsizliyin yumşalması, əhəmiyyətli demoqrafik siyasətin formalaşması, məşğulluq məsələsənin həllinin stimullaşdırılması əsaslı social, iqtisadi siyasətin gerçəkləşdirilməsi.

## 1.3. Qloballaşmanın iqtisadi inkişafda olan ölkələrin problemlərinin həllində rolu

Qloballaşma, tarixin inkişaf prossesi insanların arasında sosial-iqtisadi bəarəbrsizliyin çox artması ilə muşaiyət edildiyi üçün, iqtisadçılar, bu yüksələn bərabərsizliyi qloballaşmanın gətirib-gətirməməsi haqda fikir ayrılığındadırlar. Lakin qismən bir necə dövlət tarixin bu axarında hazırki fürsətlərdən yaxşı yararlandıqları üçün səmərəli iqtisadi inkişaf tempini tuta biliblər. "Qloballaşma" mövzusu son zamanlarda intellektual diskussiya meydanı üzrə aktual olduğu üçün əsas mövzudur. Bu, sadəcə gələcək dövrün nəzəri modeli barədə diskussiyalar yox, bütün dünyanı əhatələyən sivilizasiya prosesinin analizinə cəhdlər sayılır. Qloballaşma prosesi obyektiv prosesdir. SSRİ məhv olduqdan sonra bizlər bu planetar layihəyə qoşulmuşuq və tarixin zərurətindən irəli gələrək, ölkəmizdə də bu prosesin iştirakçıları arasına daxil olmuşdur. Bütün tarix boyunca bu və ya başqa universal fikrləri bütün dünyaya yaymaq üçün səy göstəriblər. Yeganə gerçəyi bütün dünyaya yayma təkəbbürü ilə ayrı-ayrı imperiyalar, dini ekspansiyalar və totalitar siyasi rejimlərin əmələ gəlməsi buna sübut sayılır. Müasir mənada qloballaşma mahiyyətini ifadə edən prosesə heç də yeni hadisə demək olmaz. Yalnız qloballaşma müasir dünyanın inkişafınının indiki mərhələsinin əsas meylidir. Belə ki, dünyamız XX əsri elmi inkişafların nailiyyətlərinin əmələ gətirdiyi xoş ümidlərlə qarşılamışsa, qloballaşma prosesi çox zaman heç də nikbinlik yaratmır. Bu mürəkkəb, o cümlədən birmənalı dəyərləndirilməyən prosesin perspektivləri hə birimizi düşündürür. Qloballaşma ölkələrin sabit inkişafı, bütövlüyü və idarəetmə sistemlərinin sabitilliyinin təmin edilməsinə, iqtisadi əlaqələrdə ayrıseçkiliyin aradan götürülməsinə, xalqların yaşayış durumunun yüksəldilməsinə yardım etməlidir. Ancaq qloballaşmanın millətlərə tam olaraq nə verəcəyi böyük bir sirr olaraq qalmaqdadır. Bu gün qloballaşma adamların, xüsusən də elitanın şüuru və davranışını gerçəktən dəyişir.

"Qloballaşma" mövzusu sonuncu 15-20 ildə intellektual diskussiya meydanı üzrə aktuallığına əsasən əsas mövzudur. Bu, yalnız gələcəyin nəzəri modeli barədə diskussiyalar yox, bütün dünyanı əhatələyən sivilizasiya prosesi analizinə cəhdlər

sayılır. Qloballaşma prosesinin özü obyektiv prosesdir. SSRİ məhv olduqdan sonra bizlər bu planetar layihəyə qoşulmuşuq və tarixin zərurəti çağırışı ilə, qloballaşma obyektləri arasına daxil olmuşuq.

Bütün tarix boyunca bu və ya başqa universal fikri bütün dünya üzrə yaymaq üçün səy göstəriblər. Yeganə gerçəyi bütün dünyaya yayma təkəbbürü ilə ayrı-ayrı imperiyalar, dini ekspansiyalar və totalitar siyasi rejimlərin əmələ gəlməsi buna sübut sayılır. Müasir mənada qloballaşma mahiyyətini ifadə edə bilən proses yeni hadisə deyil. Ancaq, təkcə SSRİ və onun yaratdığı sosialist dövlətləri bloku dağılandan sonra II minilliyin sonu real qloballaşma mümkün olubdur (Боброва В.В., Кальвина Ю.И., 2004: с.105).

Dünya inkişafının çağdaş mərhələsinin əsas meyli məhz miqyası get-gedə böyüyən qloballaşma hesab edilir. Belə ki, bəşəriyyət XX əsrin elmi inkişaf nailiyyətlərinin yaratmış olduğu xoş ümidlərlə qarşılamışdırsa, qloballaşma prosesi çox zaman heç də nikbinlik yaratmır (Əliyev H.Ə., 2001: s. 5). Bu mürəkkəb, o cümlədən birmənalı dəyərləndirilməyən prosesin perspektivləri hər birinizi düşündürür. Qloballaşma ölkələrin sabit inkişaf, bütövlük və idarəetmə sistemlərinin sabitliyinin təmin edilməsinə, iqtisadi əlaqələrdə ayrı-seçkiliyin aradan götürülməsinə, xalqların rifah durumunun yüksəldilməsinə yardım etməlidir. Əlbəttə ki, beynəlxalq hüquq prinsipi və normaların aliliyi, dəyişiyin təkamül xarakterləri, qarşılıqlı etimad, ümumbəşəri dəyərlərə sədaqətlə birgə hər bir dövlətin səciyyəvi milli xüsusiyyətlərinin də nəzərə alınması həmin prosesin müəyyənedici istiqamətləri olmalıdı.

Qloballaşmaya ayrı-ayrı yanaşmalar vardır. Qloballaşmaya neqativ yanaşan bir sıra alimlər bu cür düşünür ki, o milli mədəniyyəti dağıdır, dövlətin azadlığını inkar edir, cəmiyyətimzə yad sayılan istehsal standartlarını çətinliklə yeridir və s. Başqa bir qisim də qloballaşmanı sivilizasiyaların toqquşma və sivilizasiya müharibəsi kimi qəbul etməkdədir. Onlar hesab edir ki, qloballaşma üzrə münasibət bütün dünyanı qlobalistlər və antiqlobalistlərə bölünür ki, bu isə qloballaşma önündə gedən ABŞ-na düşmənləriylə mübarizədə hegemonluğunu mühafizə edib saxlamağa imkan yaradır (Татарников Е.А., Максимчук Л.В., 2005: с.60). Belə olmasına

baxmayaraq, qloballaşma dünyada gedən siyasi proseslər, beynəlxalq münasibətlər və habelə etika və mənəviyyata belə təsir edir. Ancaq qloballaşmanın xalqlara tam şəkildə nə verməsi böyük bir sirr kimi qalır. Bu gün qloballaşma adamlaın, xüsusən də elitanın şüuru və davranışını gerçəktən dəyişir. Qloballaşma əleyhdarları əmindir ki, qloballaşma dünyanın üzərində hakimiyyəti ələ almaq üçün düşünülmüş və işə salmış bir mexanizmdir. Onların bu cür deməyə əsasları var-ona görə ki, hələlik qlobal iqtisadiyyatdan ən çox zəngin və inkişaf edən bir neçə ölkə bəhrələnir.

Qloballaşma indi bütün dünyamızı ağuşuna alan mürəkkəb bir proses olaraq dəyərləndirilməkdədir. Dünya kapitalist sistemində yeni tarixi mərhələsi ifadələyən qloballaşma sanıldığı şəkildə heç də, bir formaya malik proses deyildir. İqtisadi qloballaşmanın irəli plana çıxması ilə birgə, kapitalist sistemin hərtərəfli əhatələyən qloballaşma adətən üç sahədə bir-birini tamamlamaqla genişlənməkdədir. Bunlar iqtisadi, siyasi, eyni zamanda mədəni sahələrdir. Həmin sahələr adlarına uyğun olaraq qloballaşma proseinin bir-biri ilə əlaqədar olan 3 önəmli formasını təşkil etməkdədir. Ancaq sözün gerçək mənasında iqtisadi qloballaşma hal-hazırda onun əsas forması kimi qalmaqdadır (Şükürov A.M., 2006, s.47).

Odur ki, qloballaşmanın özündə birləşdirdiyi ideoloji mahiyyət adətən iqtisadi qloballaşmanı irəli plana çəkir. İqtisadi qloballaşmanın milli iqtisadi sistemlərin yeganə bir iqtisadi sistem kimi birləşməsi, onların qarşılıqlı hala gəlməsi və beləliklə da dövlətlər arasında bütün iqtisadi əlaqələrin liberallaşmasıdır. Bu cür bir düşüncə vardır ki, milli ölkələr arasında hər şəkildə maliyyə, iqtisadi, həmçinin informasiya sərhədləri götürməli, azad iqtisadiyyat, ticarət, azad rəqabətşəraiti, maksimum sərbəstlik üzrə münbit zəmin yaradılmalıdır. Qloballaşmanın real mahiyyəti əsasən elə bundan ibarət olmaqdadır. O, iqtisadi inteqrasiya ideyaların gerçəkləşdirilməsinin yeni və daha çox inkişaf etdirilmiş formasını müəyyən edir. Ancaq ən inkişaf etmiş ölkələin özündə bu cür qloballaşmadan ehtiyatlananlar, bu ideya xalqların özünəməxsus tarixi nailiyyətləri, milli və mənəvi dəyərləri məhv edəcəyin düşünənlər olsa da, qloballaşmanın başlıca üstünlüklərindən biri isə məhz elə bundan ibarət olmaqdadır ki, o dünyəvi inteqrasiyası hər bir millətin milli maraqlar kontekstində təsəvvür etmək üçün imkan yaradır.

Qloballaşma prosesinin önəmli forması sayılan iqtisadi qloballaşmanın əsasını dövlətlərin qarşılıqlı iqtisadi inteqrasiya etməsini təşkil edir. İqtisadi inteqrasiya ölkələrin təsərrüfat və siyasi baxımdan elə birləşməsidir ki, həmin birləşmədə milli təsərrüfatlar arasında əmək bölgüsü ayrı-ayrı səviyyələrdə gerçəkləşdirilir. Belə iqtisadi əməkdaşlıq ayrı-ayrı dövlətlər arasında azadlıq, bərabərlik prinsipi əsasında bir-birinin daxili işinə qarışmadan bu dövlətlərin qarşılıqlı əhəmiyyət prinsipinə əsasən iqtisadi və elmi-texniki münasibətlərin birlikdə razılaşdırılaraq gerçəkləşdirilməsindın ibarətdir ki, bunun isə özəyində beynəlxalq əmək bölgüsü qzrə dərinləşməsi durur. Beynəlxalq iqtisadi inteqrasiya əmtəələr və xidmətlərin azad hərəkəti, kapital, həmçinin işçi qüvvəsinin beynəlxalq hərklətləri, birlikdə iqtisadi, valyuta, maliyyə, elmi,texniki, sosial, xarici, eyni zamanda hərbi siyasətin razılığı ilə gerçəkləşdirilməsinə əsaslanır (https://www.az.undp.org › docs › sustainabledevelopment › HDtextbook, 2017). Dünya ölkələri bu üsulla öz istehsal gücləri və istehsalın əhəmiyyətliliyinin artırılmasına nail olur, həmçinin bunların məntiqi göstəricisi olaraq əhalinin yaşayış səviyyəsinin yüksəlməsinə cəhd göstərirlər.

Qloballaşma olmasını iqtisadi rakursdan baxdıqda, siyasətdən fərqlənərək sadə adamlar üçün daha aydın görünən vəziyyətləri sadalamaq olar. Sadə adamlar üçün qloballaşma-"Coca-Cola"nın, "Adidas"ın, "Nokia"nın, "Panasonic"in, "Mersedes"in ticarət nişanlarıdır. Həqiqətən də, informasiya-kommunikasiya texnologiyaların son onilliklərdə sürətlə sıçrayışı qlobal ticarət nişanlarına sahib olan transmilli şirkətlər (TMŞ) fəaliyyətin şox aktivləşdirmişdir. Hazırda okeanın o tayında oturmaqla Avropada, Asiyada, Afrikada və Avstraliyadakı bazarlara asan şəkildə daxil olmuş öz məhsulun satmaq imkanı yaranmışdır. Lokal bazar ilə müştəri uğrunda əsrlər ilə gedən mübarizə daha beynəlxalq səviyyədə həyata keçirilir. Bunların hamısı iqtisadi qloballaşmanın ən önəmli təzahürləridir. Qloballaşan iqtisadiyyatın mahiyyət baxımdan fərqi bundadır ki, ən yeni texnologiyaya yol demokratikləşmiş və asanlaşıb.

İqtisadi qloballaşmanın iki önəmli komponenti var:

1) qlobal bazarın əmələ gəlməsi;

2) istehsal prosesinin qloballaşması.

Qlobal bazar tarixi olaraq bir-birindən ayrı sayılan milli bazarın bir yerə toplaşdığı nəhəng çətirdir. Yuxarıda sadalanmış ticarət nişanlarının bütün dünya üzrə istehlak məhsulu olaraq qəbul edilməsi qlobal bazarın ən önəmli nümunəsidir. Ayrı-ayrı milli zövqlər və seçimlər qloballaşmay prosesinə ən böyük əngəl kimi görünsə belə, hazırda qloballaşma dünya miqyasında xüsusi vahid zövqü, dəbi və seçimi əmələ gətirmişdir. Qlobal bazarın ən önəmli və diqqət cəlb edən xüsusiyyətlərindən biri odur ki, daxili bazarlarda bir-birinə rəqib sayılan TMŞ-lər hazırda vahid dünya bazarının uğrunda rəqabət həyata keçirirlər, eyni zamanda əksinə yerli bazarlara daxil olmuş xarici rəqiblərə qarşı mübarizələr aparırlar.

İstehsalın qloballaşması istehsalda xərc, həmçinin keyfiyyət üstünlüklərindən yararlanmaq məqsədilə müəssisələrin öz məhsullarını ayrı-ayrı dövlətlərdə istehsal etməsidir. Bir sözlə parçaları müxtəlif ölkələrdən mənbələnmiş vahid məhsulun əmələ gəlməsidir. Məsələn “Boinq” şirkətinin sonuncu hava gəmilərindən biri sayılan “Boinq-777” 132500 başlıca komponentdən təşkil edilmişdir ki, bunlar da dünyanın ayrı-ayrı dövlətlərinə məxsus olan 545 təchizatçının tərəfindən təmin olunmuşdur və bu hazırda qlobal istehsal torunun mövcudluğunun əyani sübutudur. Bu səbəbdən də hazırda dünyada TMŞ-lərin tərəfindən istehsal edilən məhsulları konkret şəkildə amerika malı, alman malı, fransız malı yox, dünya malı olaraq xarakterizə etmək daha düzgün olar.

İqtisadi qloballaşmnın özü kapitalın hərəkətini sürətləndirə və müasir ideyaların tətbiq edilməsini təmin edə bilən vahid qlobal maliyyə-informasiya məkanın formalaşması, həmçinin inkişafı prosesidir. Məşhur alim Manuel Kastelsin özü qlobal iqtisadiyyatı bütün dünya miqyasında gerçək zaman rejimində çalışmaq qabiliyyətinə malik vahid iqtisadi sistem olaraq xarakterizə etmişdir. Manuel Kastelsin fikrincə, dünya iqtisadiyyatının qloballaşması məvhumu dünya təsərrüfatının inteqrasiyası məvhumundan daha genişdir.

İqtisadi qloballaşmanın əsas hərəkətverici qüvvəsini isə haqqında yuxarıda da bəhs edilən, dövlət sərhədləriylə hesablaşmayaraq öz istehsalın qurmaq üzrə hara faydalıdısa oraya da kapitalını yatıran TMŞ-lər təşkil etməkdədir. Bu halda TMŞ-lərin neqativ təsirlərinin qarşısını almaq məqsədilə qlobal səviyyədə tədbirlərin

həyata keçirilməsi ön plana çıxır. Bu haqda Portuqaliya baş naziri olmuş Antonio Qutyerres fikirləri ilə razılaşmaq mümkündür. O, deyirdi ki, TMŞ-in eqoizminə qarşı qüvvətli regional blokların iradəsi və dünya miqyasında əlaqələndirilən əhəmiyyətli siyasəti qoymaq mümkündür və o, buna uğurlu nümunələr çəkir: "Kiçik və habelə böyük dövlət TMŞ olaraq nəhənglərə qarşı təkcə müqavimət göstərməsi mümkün deyil, Avropa Birliyi, həmçinin Şimali Amerika ölkələrini birləşdirmiş NAFTA da bunu bacarır". TMŞ-lər qloballaşan dünyanın başlıca oyunçularıdır (https://www.economy.gov.az/article, 2017). Ancaq həmin proseslərdə əsas rolu yalnız onlar deyil, milli ölkələr, eyni zamanda, ayrı-ayrı ölkələrarası institutları, ÜTT, Dünya Bankını, Beynəlxalq Valyuta Fondunu, Beynəlxalq Yenidənqurma İnkişaf Bankını, o cümlədən qeyri-hökumət təşkilatlarını göstərmək olar ki, bunlar, beynəlxalq, regional, milli təşkilatlar, vətəndaş cəmiyyəti birlikləri və xüsusən də kütləvi informasiya vasitəsi oynayırlar.

XX əsrin sonu iqtisadi qloballaşma və liberal fundamentalizmin əsasların yaratmış "Vaşinqton konsensusu" dünyanın təsərrüfatına güclü təsir etmişdir. Dünya iqtisadi siyasət layihəsi Beynəlxalq Valyuta Fondunun və başqa beynəlxalq maliyyə institutlarının tərəfindən qeyri-qərb ölkələrinə münasibətdə gerçəkləşdirilmiş və "Vaşinqton konsensusu" adın almışdır. "Vaşinqton konsensusu"nu yaradan zaman ABŞ maliyyə nazirliyi, Beynəlxalq Valyuta Fondu və Dünya Bankının rəhbərlərinin hər biri dünyanın ticarət yolu üzərində dayanan gömrük və başqa baryerlərin aradan götürülməsi barədə razılığa gəlmişlər. "Vaşinqton konsensusu"na görə iqtisadiyyatda islahatların həyata keçirilməsi üçün bəzi təkliflər işlənib hazırlanmışdır. Ancaq "Vaşinqton konsensusu"nun özü qlobal iqtisadiyyatın böhrana uğraması ilə başa çatdı. Onun isə əsasını 1997-ci il baş verən Asiya maliyyə böhranı qoyubdur. Beynəlxalq Valyuta Fondunun yalnış təkliflərinə əsasən ilk əvvəl Şərqi Asiyanın, Latın Amerikasının və Şərqi Avropanın iqtisadiyyatı xeyli böyük ziyan çəkmişdir. Bu da ABŞ-ın geosiyasi, həmçinin geoiqtisadi marağına uyğun idi. Çox az bir vaxt keçəndən sonra maliyyə böhranı dalğaları Amerika iqtisadiyyatına belə təsir etdi. Şərqi Avropanın əksər iqtisadçıları "Vaşinqton konsensusu" un tətbiq

edilməsinin əleyhinə çıxdılar. Ona görə ki, həmin model ölkəni iqtisadiyyatdan ayırmışdır.

Hazırki dövrdə iqtisadi qloballaşmanın tərəfdarları ildə bir dəfə Ümumdünya Davos Forumunda görüşür. Görüşlər zamanı işgüzar dairələr və siyasi elitanın nümayəndəlikləri iştirak edir.

Faktlardan aydın olur ki, iqtisadi qloballaşmanın özü mədəni və ya siyası qloballaşmadan xeyli sürətlə gedir. Real görünən budur ki, qloballaşma dünyanı yeganə bir iqtisadi məkan olaraq nəzərdə tutur, ancaq onun mahiyyəti təkcə iqtisadi bütövləşmə ilə məhdudlaşa bilmir. Qloballaşma hərbi, siyasi, social, mədəni, elmi, texniki bütövləşməni şərtləndirmiş tarixi bir amilə çevrilmişdir. Bu səbəbdən də belə demək olar ki, qloballaşma prosesinin növbəti mərhələsi siyasi qloballaşma irəli plana çıxacaq. İqtisadi və siyasi qloballaşma da mənəvi-mədəni dəyərlərin belə kəskin təsirə məruz qalması üçün səbəb olacaq. Qloballaşma ancaq bütün fərqliliyi ilə bəşər nəslinə mənsub olmağımıza əsaslanan ümumi gələcəyimizin formalaşdırılması üzrə irimiqyaslı. Eyni zamanda təkidli səylərimiz nəticəsində tam, hərtərəfli, ədalətli xarakterə sahib ola bilər. Qloballaşma Azərbaycanın qarşısında da xeyli böyük perspektivlər açmaqdadır. 1994-cü il imzalanan "Əsrin müqaviləs", "Bakı-Tbilis-Ceyhan" neft, eyni zamanda "Bakı-Tbilis-Ərzurum" qaz kəmərinin gerçəkləşdirilməsi, "Bakı-Tbilis-Qars" təzə dəmir yol xətti layihəsinin reallaşdırılması yönündə atılmış müvaffəqiyyətli addımlar, tarixi İpək yolunun bərpası üçün respublikamızın iştirakı Azərbaycan Respublikasının dünya iqtisadi məkanı üzrə inteqrasiyasının hazırda real həyat hadisəsi olaraq təzahür etməsinin əyani göstəricisi olmuşdur. Bunun da səmərəsi az deyildir ki, qloballaşma cəmiyyət və müxtəlif fərdlərin qarşısında dayanan əsas məqsəd və vəzifələri müəyyən edir. Bu məqsədlərə nail olmaq üçün cəmiyyətin bütün daxili resurslarını səfərbər etmək xeyli önəmlidir-hər bir vətəndaş anlamaldır ki, dövlətin apardı islahatların son nəticəsi onun isə öz vəzifələrini cəhdlə və yüksək peşəkarlıqla icra etməyə hazır olmasından, həmçinin vətəndaş olaraq mövqeyini bildirməsindən asılı olmaqdadır.

# II FƏSİL. AZƏRBAYCANIN İQTIİADİ İNKİŞAF MODELİNİN MÜASİR VƏZİYƏTİNİN ƏSAS XÜSUSIYYƏTLƏRİ

## 2.1. Azərbaycanın əsas iqtisadi inkişaf göstəricilərinin təhlili

Ölkənin sosial-iqtisadi inkişafının əsas iqtisadi göstəricilərinin müəyyən olunması ölkənin inkişaf strategiyasının qarşısındakı başlıca vəzifələrdəndir. Milli iqtisadiyyatın inkişaf göstəricilərinin proqnoz qiymətlərinin hazırlanması da mühümdür. Ümumiyyətlə, iqtisadi hesablamalar və əsas iqtisadi göstəricilərinin təhlil edilməsi:

- ölkənin xarici və daxili, onun regionlarının və həmçinin, əhalinin təlabatlarının təmin olunmasında milli iqtisadiyyatın imkanlarını real olaraq qiymətləndirməyə,

- iqtisadiyyatın ayrı-ayrı sektorlarının və ümumilikdə milli təsərrüfatın inkişaf perspektivini müəyyən etməyə,

- iqtisadi dəyişikliklərin, həmçinin, xarici iqtisadi fəaliyyətin strategiya və taktikasını işləyib hazırlamağa,

- ümumilikdə ölkənin milli bazarının, onun ayrı-ayrı seqmentlərinin (investisiya, əmək bazarı, qiymətli kağızlar və b.) fəaliyyətinin iqtisadi mexanizmini təkmilləşdirməyə,

- ölkənin vergi, maliyyə-kredit, investisiya, struktur, sosial və b. siyasətini əsaslandırmaq və onu inkişaf etdirməyə,

- ümumilikdə milli iqtisadiyyatın, onun ayrı-ayrı sektorlarının və regionlarının inkişaf etmə alternativlərini qiymətləndirməyə, dövlətin iqtisadi təhlükəsizlik tədbirlərini müəyyən etməyə və həyata keçirməyə şərait yaradır.

İqtisadi potensialın başlıca həlledici amilləri kimi kənd təsərrüfatının, tikintinin, sənayenin, istehsal, sosial, ekoloji infrastruktur, nəqliyyat, rabitə istehsal gücləri, elmi-texniki tərəqqini, əmək ehtiyatlarını inkişaf etdirməyə və onun istehlak və istehsal sferasında reallaşdırılmasını təmin etməyə qadir olan ixtisaslı kadrlar çıxış edir. Ölkənin ümumi iqtisadi potensialının başlıca ünsürlərinə aşağıdakılar aiddir (Лемешевский И.М., 2012: с.45):

- təbii-resurs potensialı;
- elmi-texniki və elmi innovasiya potensialı;
- demoqrafik və əmək potensialı;
- informasiya-texnoloji potensial;
- milli iqtisadiyyatın investisiya potensialı;
- istehsal potensialı;
- ekoloji potensial;
- xarici iqtisadi potensial.

2019-cu ildə ÜDM-in qeyri-neft sektoru 3.2% artmışdır. 2019-cu il 2018-ci ilin müvafiq dövrünə əsasən informasiya və rabitə sahəsi 15.8%, qeyri-neft sənayesi 16.8%, ticarət sahəsi 2.8%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsi 3.3%, nəqliyyat və anbar təsərrüfatı 2.5%, kənd təsərrüfatı 13.1% artmışdır.

**Diaqram 1: Ümumi daxili məhsulun bölgüsü faizlə (2019)**




**Mənbə:** https://www.economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2019/30175, 2019

Neft-qaz sahəsi üzrə 2019-cu ildə 2018-ci ilin uyğun dövrünə əsasən 1.3% çoxalma qeydə alınmışdır. Bu sahənin ÜDM-də çəkisi 41.0% təşkil etmişdir.

2019-cu ildə ölkədə sosial sahələrin və iqtisadiyyatın inkişaf etməsi üçün ümumi maliyyə mənbələrindən əsas kapitala qoyulan vəsaitin 61.5 faizi qeyri-neft sənayesinin, 38.5%-i neft bölməsinin inkişaf etməsində istifadə olunmuşdur.

Qeyri-neft sektorunun inkişaf etməsi ilə əlaqədar həyata keçirilən islahatlar ölkəmizin iqtisadiyyatına müsbət təsir etmiş, ixrac gəlirləri çoxalmışdır.

Dövlət Statistika Komitəsinin məlumatlarına görə, 2019-cu ildə xarici ticarət dövriyyəsi 14074.2 mln. dollar, həmçinin, ixrac 8240.0 mln. dollar, idxal isə 5834.2 mln. dollar olmuşdur və 2405.8 mln. dollar həcmində müsbət ticarət saldosu əmələ gəlmişdir. Bu dövr müddətində qeyri-neft ixracı 2018-ci ilin uyğun dövrü ilə müqayisə edildikdə görərik ki, 17.8% artım müşahidə olunmuşdur.

2019-cu ildə maliyyə-kredit təşkilatlarının iqtisadiyyata təqdim etdikləri kreditlərin ümumi həcmi 2018-ci ilin uyğun dövrünün göstəricisi ilə müqayisədə 10.5% artaraq 13198 mln. manat təşkil etmişdir. Keçən ildə milli valyutada verilən kreditlərin ümumi həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 16.5 faiz, xarici valyutada verilən kreditlərin ümumi həcmi isə 0.9 faiz artmışdır.

2019-cu ildə əhalinin banklarda olan ümumi əmanətləri 2018-ci ilin uyğun dövrünə nisbətən 9.6% çoxalaraq, 8.6 mlrd. manat təşkil etmişdir.

2019-cu ildə aylarında əhaliyə istehlak bazarında satılan məhsulların və göstərilən xidmətlərin həcmi ötən ilin müvafiq tarixi ilə müqayisədə 2.6 faiz çoxalaraq 22753.9 mln. manat olmuşdur.

2018-ci ilin müvafiq tarixi ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi 2.8%, əhaliyə göstərilmiş ödənişli xidmətlərin ümumi həcmi isə 1.5% çoxalmışdır. 2019-cu ilin müvafiq tarixində ölkə əhalisi pərakəndə ticarət şəbəkəsindən 8.9 mlrd. manatlıq ərzaq məhsulları,  içkilər və tütün məmulatları 9.0 mlrd. manatlıq qeyri-ərzaq malları almışdır. Bu göstəricilərin ümumi həcmi ötən ilin müvafiq dövrünə nəzərən müvafiq olaraq 2.5 faiz və 3.1 faiz olmuşdur (2019-u ilin I yarımili üzrə Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafına dair arayış, 2019: s.3).

2019-cu il ərzində əhalinin gəlirləri 6.6% çoxalaraq 27.4 milyard manat təşkil etmişdir. Əhalinin bir nəfərinə düşən gəlirləri isə 5.7% çoxalaraq 2768.6 manat olmuşdur.

2019-cu ildə ölkə iqtisadiyyatında muzdla işləyən işçilərin orta aylıq əmək haqları 2018-ci ilin uyğun dövrü ilə müqayisədə 7.9% çoxalaraq 583.7 manat olmuşdur.

2019-cu il ərazində neft sənayesi 17 766,1 milyon manat təşkil etmişdir. Bu göstərici 2018-ci ilin müvafiq tarixi ilə müqayisədə eyni səviyyəni təşkil edir.

Qeyri-neft sənayesi 5 801,7 mln. manat təşkil etmişdir. Bu göstərici 2018-ci ilin müvafiq tarixinə nisbətən 15,7% çoxalmışdır. Bu çoxalma göstəricisi adətən mebeldən ayrə ağacın emal edilməsi və ağacdan məmulatlar istehsalı, qoşqu və yarımqoşquların, avtomobilin istehsalı, içkinin istehsalı, toxuculuq sənayesini, rezinin və plastik kütlənin istehsalı, kimya sənayesi, kağız və karton istehsalı, mebellərin istehsalı, maşın və avadanlıqların quraşdırılması, təmiri, qida məhsullarının istehsalı, maşın və avadanlıqların istehsalı, tikinti materiallarının istehsalı sahələrində müşahidə edilmişdir (Azərbaycanda 2019-cu ilin ilk yarımilliyində sənayenin inkişafı haqda arayış, 2019: s. 1-2).

Sənaye məhsulunun 25,6% emal, 4,2% elektrik enerjisi, 69,5% mədənçıxarma, buxar və qaz buxarının istehsalı, bölüşməsi, təchizatı, 0,7%-dirsə, suyun təchizatı, tullantılar təmizlənməsi, emalı bölmələri üzrə istehsal edilmişdir.

**Cədvəl 2: Sənaye sahələrində istehsalın həcmi (2019)**

| Fəaliyyət növlərinin adı | 2019-cu ildə istehsal edilmişdir, milyon manat | 2018-ci ilin müvafiq dövrünə nisbətən, faizlə |
|---|---|---|
| Mədənçıxarma sənayesi | 16 392,6 | 100,1 |
| Xam neft və təbii qaz hasilatı | 14 693,8 | 99,9 |
| Metal filizlərinin hasilatı | 133,2 | 111,2 |
| Mədənçıxarma sənayesinin digər sahələri | 28,8 | 93,1 |
| Mədənçıxarma sənayesi sahəsinə xidmətlərin göstərilməsi | 1 536,8 | 103,5 |
| Emal sənayesi | 6 024,1 | 113,5 |
| Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı | 995,3 | 102,8 |
| Su təchizatı, tullantıların təmizlənməsi və emal edilməsi | 155,8 | 107,4 |

**Mənbə:** https://www.economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2019/30175, 2019

Bütün könüllü, həmçinin icbari ödənişlər olunduqdan sonra əhalinin sərəncamında 29559.7 mln. manatlıq və yaxud əvvəlki ilin müvafiq tarixinə nisbətən 6.7 % çox vəsait qalmışdır (2019-cu ilin ilk yarımilliyində Azərbaycanda sosial sektorun inkişafı barədə arayış, 2019: s. 1).

2019-cu ildə iqtisadi fəal əhalinin ümumi sayı 5180.1 min nəfər olmuşdur. Onlardan 4927.8 min nəfərini məşğul əhali təşkil etmişdir.

2019-cu ildə muzdla işləyənlərin ümumi sayı 1613.7 min nəfər, həmçinin, iqtisadiyyatın qeyri-dövlət sektorunda isə 710.3 min nəfər, dövlət sektorunda 903.4 min nəfər təşkil etmişdir. İqtisadiyyatın neft sahəsində 35.0 min nəfər, qeyri-neft sahəsində isə 1578.7 min nəfər işləmişdir.

Müəssisə və təşkilatlarda muzdla işləyən işçilərin 24.0 %-i məhsul istehsalı sahələrində, həmçinin, 7.5 %-i tikintidə, 7.3 %-i emal sənayesində, 3.3 %-i aqrar təsərrüfat, balıqçılıq, həmçinin meşə təsərrüfatı sahələri üzrə, 2.2 %-i mədənçıxarma sənayesində, 1.9 %-i suyun təchizatı, tullantılar təmizlənməsi və emalı, 1.8 %-i elektrik, buxar və qaz istehsalı, bölüşdürülməsi, təchizatı sahələrində məşğul olmuşdur.

2019-cu ildə hər bir işçiyə düşən orta aylıq işlənən iş saatlarının ümumi miqdarı 146.4 saat təşkil etmişdir.

Keçən ildə ölkə üzrə rəsmi işsiz statusu verilmiş şəxslərin ümumi sayı 60.7 min nəfər olmuşdur. Onların 35.8 %-ni qadınlar təşkil etmişdir bununla yanaşı, işsizlikdən ümumi sığorta ödənişinin orta miqdarı 229.1 manat təşkil etmişdir (https://www.economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2019/30175, 2019).

2019-cu ildə iqtisadiyyatın qeyri-neft sektorunda 22,300.6 milyon manatlıq əlavə dəyər yaradılmışdır. Ümumilikdə onun 51.2%-i sosial və başqa xidmətlər, nəqliyyat vasitələri təmiri, ticarət və inşaat sahələrinin payına düşür.

2019-cu ildə dövlət iqtisadiyyatının qeyri-neft sahəsində yaradılmış əlavə dəyər 2018-ci ilin müvafiq tarixi ilə müqayisədə 3.2% çoxalmışdır. Qeyri-neft sahəsində yaradılan əlavə dəyərin ÜDM üzrə çəkisi 59% olmuşdur. Qeyri-neft sahəsinin alt sahələrində ÜDM-ə daha xeyli müsbət töhfələr verən sahələr tikinti, nəqliyyat, anbar

təsərrüfatı, ticarət-nəqliyyat vasitələrinin təmir edilməsi sahələri olmuşdur (2019-cu ilin birinci yarımili üzrə qeyri-neft sahəsinin inkişafı haqda arayış, 2019: s. 1).

**Şəkil 1: Qeyri-neft sektorunda yaradılan əlavə dəyərin sahələr üzrə bölgüsü (2019)**




**Mənbə:** https://www.economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2019/30175, 2019

Qeyri-neft sektorunun əksər sahələrində yaradılmış əlavə dəyərin artım tempi əvvəlki ilin müvafiq dövrünə nisbətən yüksək olmuşdur.

2018-ci ilin müvafiq tarixinə nisbətən kənd, meşə və balıqçılıq təsərrüfatları sahəsində 13.1%, ticarət və nəqliyyat vasitələrinin təmiri sahəsində 2.8%, nəqliyyat və anbar təsərrüfatı sahəsində 2.5%, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində 3.3%, informasiya və rabitə sahəsində 15.8%, sosial və digər xidmətlər sahəsində 1.8% artım qeydə alınmışdır.

2019-cu ildə qeyri-neft sənayesində yaradılan əlavə dəyərin həcmi əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 16.8% artmışdır.

Qeyri-neft sənayesində yaradılmış əlavə dəyərin strukturunda mədənçıxarma sənayesinin çəkisi 2.9%, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatının xüsusi çəkisi 20.3%, emal sənayesinin xüsusi çəkisi 73.2%, su təchizatı, tullantıların təmizlənməsinin çəkisi isə 3.6% olmuşdur.

2019-cu il ərzində qeyri-neft sənayesində 5801.7 mln. manatlıq məhsul istehsal edilən və əvvəlki ilin müvafiq tarixi ilə müqayisədə məhsul istehsalı 15.7% çoxalmışdır.

Qeyri-neft sənayesinin məhsul istehsalında mədənçıxarma sənayesinin xüsusi payı 2.8% və yaxud 162.1 milyon AZN, emal sənayesinin xüsusi payı 77.4% və yaxud 4488,5 milyon manat, elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatının ümumi payı 17.1% və yaxud 995.3 milyon manat, su təchizatı, tullantıların təmizlənməsinin ümumi payı isə 2.7% və yaxud 155.8 milyon manat olmuşdur.

**Şəkil 2: Qeyri-neft sənayesinin ümumi buraxılış strukturu**




**Mənbə:** https://www.economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2019/30175, 2019

2019-cu ildə iqtisadi sahədə başlıca uğurlarından biri aqrar təsərrüfatda rekord göstəricilərin əldə olunmasıdır. Kənd təsərrüfatı keçən ilin altı ayı ərzində 13 % artmış, bitkiçilikdə 25 % artım əldə edilmişdir. Bu, onu göstərir ki, qoyulmuş investisiyalar, aparılmış islahatlar, verilmiş subsidiyalar, aqrar təsərrüfa elmi yanaşma öz nəticəsin verməkdədir.

2019-cu ilin I yarısında ümumi ticarət dövriyyəmiz 20 %-dən çox artmışdır. İlk 6 ay ərzində ölkə iqtisadiyyatına təxminən 6 milyard dollar sərmayə qoyulmuçdur. Bu sərmayənin əsas hissəsi qeyri-neft sektoruna qoyulmuş sərmayədir. İnflyasiya cəmi 2,5 % təşkil etmişdir. Əhalinin gəlirləri 6,6 % artıb, inflyasiya 2 % təşkil etmişdir. Yəni, vətəndaşların gerçək gəlirləri inflyasiyanı 3 dəfəyə qədər üstələmişdir.

Sosial sahə bizlər üçün prioritet sahə sayılır. Bu sahə həmişə diqqət mərkəzində olmuşdur. Azərbaycan əhalisinin rifahı, həyat səviyyəsi mütəmadi olaraq diqqət mərkəzindədir. İnsanların daha da yaxşı şəraitdə yaşaması və onların illik qazanclarının artmasına dövlət dəstəyinin gücləndirilməsi ölkənin diqqət yetirdiyi başlıca prioritetlərdən biridir. Məsələn, 2019-cu ildə I yarımilikdə büdcəyə gömrük və vergi orqanları xətti ilə 440 mln. manatdan (əlavə olaraq) çox vəsait daxil olmuşdur. Bu vəsaitlər məhz həmin sosial tədbirlərə istiqamətləndilir.

## 2.2. Azərbaycanın neftdən asılı formalaşmış iqtisadi inkişaf modelinin qiymətləndirilməsi

Azərbaycan Respublikasının dünyada neft, həmçinin qaz ölkəsi olaraq tanıyırlar. Bu gün ölkəmizdə istehsal olunan neft-qaz millətimizin güzəranının yaxşılaşması və onun ictimai, siyasi həyatında xeyli rol oynayır. Bu nemət unudulmaz rəhbər Heydər Əliyevin memarının olduğu neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi sayəsində Azərbaycanda dinamik inkişafın təmin olunması, əhalinin rifahının yaxşılaşması, dünya təsərrufat sisteminə inteqrasiya əlaqələrinin güclənməsi mümkun olmuşdur (İsayev A.S., 2008: s. 27).

Ölkəmizin iqtisadiyyatı neftin üzərində qurulmuşdur. Bütün iqtisadi göstəricilərdə, eyni zamanda ÜDM-in, formalaşmasında neft lazımi qədər üstün çəkiyə sahibdir. ÜDM-in yarısı neft hesabına formalaşmış, qeyri-neft sahəsi hesab edilən digər yarısının da başlıca lokomotivi neft hesab edilir. Əgər biz qeyri-neft sahəsini götürsək, görmək olar ki, misal üçün tikinti, turizm və kənd təsərrüfatının inkişafetmə büdcəsi neftin puluyla formalaşır. Belə ki, neftdən asılılıq yüksək olmaqdadır.

Azərbaycanda imzalanan neft müqavilələrinin, xüsusilə də "Əsrin müqaviləsi" üzrə işlərin uğurla gerçəkləşdirilməsi, respublika iqtisadiyyatının bütün sahələrinin inkişafı üçün güclü təsir göstərməkdə davam etməkdədir. Buna təzə iş yerlərinin yaradılması, neft-maşınqayırma və neft avadanlıqlarını istehsal etmiş müəssisələrin, yerli inşaat təşkilatlarının və xidmət sahələrinin hazırlanması, yeni layihələrin icra edilməsində yerli təşkilatların əhəmiyyətli iştirakını göstərmək mümkündür. Bütün

bunların nəticəsi olaraq dövlət büdcəsinə iri bonus və vergilərin hesabına daxilolmalarının çoxalması, büdcənin formalaşması, həmçinin bu qəbildən olan başqa sahələrin iqtisadi inkişafının səmərəli şəkildə dinamik artımı hiss edilməkdədir. Yaxın gələcəkdə təzə neft layihələrinin tammiqyasla işlənilməsi sayəsində xam neftin dünya bazarlarına çıxarılması genişləndiriləcəkdir. Nəticədə əldə edilən gəlirlərin hesabına Azərbaycan iqtisadiyyatının makroiqtisadi göstəricilərinin inkişafı üzrə müsbət meyillər özünü göstərir.

Neft gəlirlərinin vəsaitləri dövlət iqtisadiyyatının ümumi maraqların nəzərə almaqa, digər prioritet sahələrin inkişafı üçün yönləndirilməsi əsas məsələ olmaqla aktual məsələ kimi qalmaqdadır. Neft gəlirlərinin istifadə edilməsinin prioritet istiqamətlərinin müəyyənləşdirilməsi və bu səbəbdən paylanmanın mərkəzləşdirilən mexanizmlərinin yaradılması respublikamız üçün olduqca mühüm məsələlərdən biridir. Neftdən əldə edilən gəlirlərin iqtisadiyyatın digər mühüm sahələrinə istiqamətlənməsini, qeyri-neft sahəsində yeni istehsal müəssisələrinin yaradılması yolu ilə təzə iş yerlərinin hazırlanması, vətəndaşların sosial-müdafiə tədbirlərinin daha çox gücləndirilməsini özünün iqtisadi siyasəti üzrə prioritet vəzifə olaraq nəzərdən keçirir. Neft hasilatı ölkəmiz üçün son məqsəd deyildir, o iqtisadiyyatı təkmilləşdirmək üçün bir vasitədir. “Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”nın 2014-2018-ci illər təsdiq edilməsi haqqında” fərmanlarında isə neftdən əldə edilən gəlirlərdən milli iqtisadiyyatın çoxqütblü inkişaf etməsi uğruna səmərəli istifadə edilməsi məsələsinə önəmli yer ayrılmışdır. Həminfərmanların başlıca qayəsi ölkədə sahibkarlığın inkişafını sürətləndirərək, əmək resurslarından, təbii resurslardan əhəmiyyətli istifadə edərək yeni iş yerlərinin yaradılmasına, yoxsulluğun səviyyəsinin aşağı salınmasına nail olmaqdan ibarət olmaqdadır. Bölgələrin iqtisadi inkişafında olanləngliyi aradan götürmək məqsədi daşıyan sözügedən fərmanda iş adamlarının fəaliyyət göstərməsinə əngəl olan bürokratik amillərin ortadan qaldırılması uyğun icra strukturlarının qarşısında əsas vəzifələrdən biri olaraq qoyulmuşdur. Qısa zamanda Azərbaycanda 75 mindən çox yeni iş yerinin yaradılması fərman və

sərəncamların, gerçəkləşdirilən əməli-praktik tədbirlərin müvəffəqiyyətli nəticələrinin təzahürüdür (Şəkərəliyev A.Ş, Şəkərəliyev Q.Ş., 2016: s. 29).

Neft gəlirlərinin Azərbaycanın iqtisadiyyatının müxtəlif sahələrinin inkişaf etməsi məqsədi ilə kapital yatırımlarına çevrilməsi qlobal inkişafrtmə meyilləri və bazarın mühafizəsi konsepsiyası ilə əlaqəlidir. Dövlət bu gün iqtisadiyyatın istənilən sahələrinin rekonstruksiya olunması layihələrini maliyyələşdirmək məqsədilə lazımi qədər investisiya resurslarına malik deyil. Bu səbəbdən neft gəlirlərinin əhəmiyyətli istifadəsi və onun perspektiv imkanlarını çoxaldır. Azərbaycanın müəssisələrinin səhmlərinə yatırılası xarici investisiyaların səmərəli şəkildə neft gəlirlərinin dövlət proqramlarının əsasında prioritet sahələrinə istiqamətlənməsi optimal variant hesab edilir.

Neft sahəsi dövlət və əhalinin gəlirlərinin formalaşması üçün əsas bölgü və təkrar bölgü mexanizmlərinin vasitəsiylə formalaşır və dərinləşir. Neftdən gələn gəlirlər istehlak və yığım üçün bölündüyü zaman təkrar istehsal prinsipi gerçəkləşir. Bugünkü istehlak və perspektiv gəlirlərin arasında keçidin forma və məzmunu, onun bölgü və yenidən bölgü mexanizmlərinin səmərəsini göstərir. Neft sahəsi yalnız perspektiv gəlirlərin əmələ gəlməsi üçün ilkin kapital rolun oynamalıdır. Əgər Azərbaycanın iqtisadiyyatında istehlak sferası üzrə neft gəlirləri istifadə edilsə, o zaman perspektiv gəlirin mənbəyi azalar. Bu səbəbdən də neft gəlirlərinin əhəmiyyəti onun perspektiv gəlirlər üzrə rolu ilə ölçülür.

Neft gəlirlərinin istifadəsindən öncə onun həcmi və artımını nəzərə alaraq qorunması metodlarının əhəmiyyətli variantlarını tərtib etmək metodologiyasın hazırlamaq zəruridir. Neft gəlirlərinin həcmi, həmçinin onun məqsədli istifadəsi dövlət iqtisadiyyatının ümumilikdə inkişafının və strateji məqsədlərinin əsasında özünün xüsusi cəhətlərini kəsb edir. Onun artım tempinə müvafiq olaraq istifadə tempin artırmaq və onun istifadəsində əldə olunan səmərəsini dünya banklarında saxlamaqdan qazanılan gəlirlərdən çox olma məqamlarını da dəyərləndirmək vacibdir. Bu gün ölkədə kredit resursu olaraq həmin vəsaitin istifadə edilməsi mümkündür. Lakin qərarlaşmamış bazar münasibətləri mühitində və mövcud bazar seqmentləri üzrə özünün əmtəə-xidmət təklifin formalaşdırmamaq şəraiti daxilində

bu vəsaitin istifadə edilməsi və təhlükəli bir addım ola bilər. Bu səbəbdən də neft gəlirinin bölgüsü meyar olaraq qəbul edilə bilər. Neft gəlirlərinin istifadə edilməsinin ilkin faktoru onun istehsal həcminin maksimumlaşdırılmasıdı.

Makroiqtisadi tarazlıq üçün ölkədə büdcə gəlirləri və neft fondunun əlaqəsinin yaradılması, neft gəlirinin bölgüsü və büdcə məsrəflərinin təkrar istehsal və ya texnoloji quruluşu, həmçinin sahələr üzrə təsnifatına uyğun bölgü mexanizmləri tətbiq olunur. Həmin mexanizmlərin seçilməsi, o mexanizmlərin dəyişmə meyilləri və idarə olunma strategiyası, normativ hüquqi-iqtisadi bazası və  eləcə də qlobal inkişaf strategiyasına əsaslanmaqdadır.

Neft fondunun maliyyə vasitəsi ilə istifadə edilməsi hələ qərarlaşmayan bazar iqtisadiyyatı mühitində əlavə xərclərin artması və maliyyə pozuntusuna gətirib çıxara bilər. Bu səbəbdən də onun büdcə gəlirləri formasında təsdiq edilməsi və ona nəzarətetmə məqsədi ilə əsaslanan xərc strukturuna əsasən Neft Fondundan büdcəyə vəsaitlər ayrılır. Bu ayırma Neft Fonduna məxsus gəlir və məsrəflərində, dövlət büdcəsinin xüsusi sətri ilə gəlirlərində, prioritet yönləri nəzərə almaqla məsrəf strukturunun sahə, həmçinin funksional təsnifatı üzrə bölüşdürülməkdədir.

Əlbəttə ki, bu bölgü üzrə büdcənin özünün gerçəkliyi şəffaflığı, həmçniin onun real sahəyə yaxınlığı mühüm şərait olaraq təsir edir. Nəticədə, neft gəlirlərinin dövlət büdcəsi gəlirləri və büdcənin vasitəsi ilə məsrəflərin transformasiyasında alternativ variantlar və ya elmi əsaslar ilə proqnozlaşdırılan meyillər önəmli rol oynayır.

Beləliklə, bu son effektə təsir göstərir. Büdcə xərclərinin strukturu üzrə neft gəlirinin investisiya və ya istehlak üzrə bölgüsü, yaxud müdafiə edilən xərclər, yaxud restruktizasiya və müasirləşdirmə xərclərinin arasında nisbətlər növbəti neft gəlirlərinin ayırma meyli və onun əhəmiyyətini müəyyən edir (Şəkərəliyev A.Ş, Şəkərəliyev Q.Ş., 2016: s. 33-34).

Qeyd etmək gəgəkdir ki, neft gəlirlərinin sahələrdə prioritetlərin seçilməsi hər bir sektorun sosial-iqtisadi səmərəsi ilə ölçülür. Bu səbəbdən də neft gəlirləri, eyni zamanda mülkiyyət münasibətlərindən asılı olmaqla qeyri-dövlət sahəsinə, kreditlər, maliyyə lizinqi və ya lizinq şəklində istifadə edilə bilər. Maliyyə lizinqin neft gəlirlərinin hesabına iqtisadi fəaliyyəti stimullaşdırmış xidmət sferasını təşkil

etməklə inkişaf etdirmək olar. Eyni zamanda, sahibkarlığa yardım məqsədiylə ünvanlı kredit, müxtəlif regionların iqtisadi potensialından istifadə etmək məqsədilə lokal proqram və biznes planların əhəmiyyətinə uyğun neft gəlirlərindən istifadə oluna bilər. Eyni zamanda turizmin inkişaf etməsi, yeni aparatların əldə edilməsi və müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi üçün kreditlər verilməlidi.

Qeyd etmək gərəkdir ki, neft sektorunun perspektivi neft email və onun əhəmiyyətli təşkili metodlarının səmərəsi ilə də formalaşmaqdadır. Struktur dəyişmələr, neftin hasilatı və istifadə edilməsi tsikilində olan müasirləşdirmə stimulları və gerçəkləşmə mərhələlərindən hər birinin arıca effekt və kompleks effekti ilə ölçülməkdədir. Bu nöqteyi-nəzərdən struktur əhəmiyyət ardıcıl şəkildə sahədaxili proporsiyalar uzlaşması, istehsal, emal, həmçniin satış arasındakı gəlirlərin bölgüsündə və kapital qoyuluşunda biri-birin tamamlamış vahid səmərə siyasəti aparılmalıdır.

Hazırda Azərbaycanın iqtisadiyyatına investisiya yatıran strateji investorlar ancaq xammal mənbələrinə maraq göstərir. Onların heç biri emal müəssisələrinin təkrar qurulması üçün maraq göstərmirlər. Bu da gələcəkdə sözügedən investorların inhisarlı niyyətinə gətirib çıxarar. Bu nöqteyi-nəzərdən neft sahəsi klassik nümunə sayıla bilər. Neft konsorsiumunın iştirakçılarının heç birisi hələ bu günə qədər neft emalı müəssisələrinin tikintisi və ya yenidən quraşdırılması barədə öz arzularını bildirməyibdir. Azərbaycan iqtisadiyyatının neft sahəsində inhisar niyyətinə yol verməmək məqsədilə ancaq dövlətin milli emaletmə sənayesin bərpa etmək gərəkdir. Neft gəlirlərinin yarısından çoxunun bu sahə üzrə yönəldilməsi məqsədəuyğun olmaqdadır. Biz bu cür düşünürük ki, idxalı əvəzləyə bilən və ixracayönümlü sənaye sektorlarının inkişafının təmin olunması üçün neft gəlirinin prioritet müəssisələrin arasında müsabiqəylə ilə paylanması gərəkdir. Müsabiqədə iştirak etmiş müəssisələr, missal üçün, istehsal etdikləri malın çox hissəsini xarici bazarlar üzrə realizə etməli və yerli xammal resurslarından maxsimum istifadə etməlidi. Bütün sahələrin inkişaf etməsi və vətəndaşların istehlak tələbatının ödənilmə prosesi qaz sənayesinin perspektiviylə bağlıdır.

Azərbaycanın son illərdə dinamik inkişafını təmin edən başlıca amillərdən biri iqtisadiyyatının şaxələləndirilməsi siyasətinin uğurla həyata keçirilməsi, habelə prioritet istehsal sahələrinin uzlaşdırılması, inkişaf potensialının qarşılıqlı kömək mexanizmi əsasında reallaşdırılmasıdır. Bir sıra ölkələrin təcrübəsində müvəffəqiyyətlə sınaqdan çıxmış, özün doğrultmuş sözügedən iqtisadi strategiya neftdən əldə edilən gəlirlərin qeyri-neft sahəsinə, istehsal sahibkarlığının inkişaf etməsinə yönəldilməsini, özəl sahələrin ÜDM-də xüsusi çəkisinin yüksəldilməsini nəzərdə tutur.

İqtisadiyyatın bütün sahələrinin inkişaf etməsi, eyni zamnda makroiqtisadi sabitliyin qorunaraq saxlanılması və maliyyənin təhlükəsizliyinin təmin olunması baxımından önəmli əhəmiyyət kəsb edir.

Cənab İlham Əliyev iqtisadiyyatın neft gəlirlərindən asılılığını yolverilməz hesab etməklə yanaşı, qeyri-neft sektorunun daha çox respublikanın bölgələrində inkişaf etdirilməsi yolu ilə sosial və regional tarazlığın qorunmasına çalışmışdır. Dövlət başçısı çıxışlarında hər zaman vurğulamışdır ki, neftlə zəngin bəzi ölkələrin gərginlik və qeyri-sabitlik mühitində yaşaması, təbii sərvətləri üzərində sahiblik hüququnu itirməsi ilə bağlı çoxsaylı misallar gətirmək mümkündür. Hazırda dünya ölkələrini iflic edən qlobal iqtisadi böhranın Azərbaycana ciddi təsir göstərməməsi də məhz hökumət səviyyəsində qeyri-neft sektoruna göstərilən yüksək qayğının nəticəsidir.

Hazırki dövrdə neft qiymətinin düşməsi Azərbaycanın iqtisadiyyatına neqativ təsir göstərir. Belə ki, biz bunu daha görürük. Misal üçün, tikinti sahəsi kəskin zəifləmiş, maşın bazarında dyanmalar var, yolların çəkilişi və başqa investisiya vasitəsilə görülən işlər dayandırılmışdır. Banklarda ixtisarlar planlaşdırılmış, bir sıra şirkətlər bağlanmışdır. Hazırda iqtisadi böhran əlamətləri özünü büruzə verir. Nəzərə alsaq ki, Azərbaycanın iqtisadiyyatında indi də, qeyri-neft sahəsi lazımi inkişaf səviyyəsinə qalxmayıb, bu o deməkdi ki, neft yaxın vaxtlarda indiki qiymətdə qalsa, Azərbaycan Respublikasında iqtisadi artımdan danışmaq olmaz. Yaxın vaxtlarda Azərbaycan Respublikasında iqtisadi tənəzzül müşahidə ediləcək. Bu səbəbdən də dövlət təcili anti-böhran tədbirləri həyata keçirməlidir.

Son zamanlar iqtisadiyyatın reputasiyası ilə əlaqəli ÜDM-də qeyri-neft sahəsinin payınının artırılması ilə əlaqədar müəyyən uğurlar əldə olunub lakin bununla birgə, Azərbaycanın iqtisadiyyatında neft sahəsinin payı yüksək şəkildə qalmaqdadır. Neft sahəsinin payı yüksək olduğu üçün ixracatın reputasiya olunmasına ehtiyac duyulur. O halda Azərbaycanın iqtisadiyyatı illər sonra hazrıki vəziyyətindən xeyli yaxşı ola bilər. Növbəti illər iqtisadiyyatın durumu iqtisadi reputasiya ilə islahatlardan asılı olacaqdır. Əgər qeyri-neft sahəsinin payının artırılması ilə əlaqəli islahatlar davam etdirilsə, o halda neft dominatı olmayacaqdır və bu imkan verəcəkdir ki, Azərbaycanın iqtisadiyyatı qeyri-neft ektorunun üzərində formalaşsın.

### 2.3. Dövlətin sosial-iqtisadi siyasətinin iqtisadi inkişafa təsiri

Dövlətin iqtisadi siyasəti dediyimiz zaman, iqtisadi subyektin davranışına dolayı eyni zamanda müstəqim təsir göstərən dövlət tədbirləri sistemi anlaşılır. Müstəqim (inzibati) üsulların iqtisadi proseslərə təsir etməsi birmənalı deyildir. Misal üçün, hökümət kommunal xidmətlərə qiymət qoymaqdadırsa, kimə nəyin nə qədər satıldığını müəyyənləşdirirsə, bu halda biz inzibati təsirlərin iqtisadi tənzimləməsi yolu ilə rastlaşırıq. Belə ki, dövlət iqtisadi informasiyaları yayındıra bilən fikir amillərini izləməkl, onların reklamın qadağan edirsə, ətraf mühiti çirkləndirmiş istehsalçılara təsir göstərirsə, işçiləri istehsal riskindən müdafiə qaydaları tətbiq etmişsə, alıcıların istehlak məhsullarının hər birindən təhlükəsizlik normalarını hazırlamışsa, bu halda biz inzibati təsirlərin iqtisadi tənzimləmə növüylə deyil, təsərrüfat fəaliyyətindəki sosial tənzimləmə növü ilə rastlaşmış olarıq.

Cəmiyyətin inkişaf etməsi ilə əlaqəli olaraq ölkənin iqtisadi siyasəti dövlət tənzimlənməsində forma və metodları yenidən istehsal prosesinə məxsus tərkib hissəsi xüsusiyyətinə sahib olur və onların səmərəliliyinin əsas amilinə çevrilir. Aydındır ki, iqtisadi məhdud ehtiyyatlar hüdudunda cəmiyyətimizin tələbatının maksimum ödənməsinin təmin olunması haqqında elmdir. Bu halda həmin resurslardan əhəmiyyətli istifadə edilməsi nəzərdə tutulur. Bununla bağlı olaraq iqtisadi siyasətin özü ictimai istehsalın cari dövrdə və gələcəkdə maksimum

effektivliyinin təmin edilməsi məqsədini güdür. Makrosəviyyədə nəzərdə tutulan bu məqsəd bazar əlaqələrinin təmin edilməsi, bazarın dəstəklənməsi, sosial inkişaf etməsi və sosial təhlükəsizliyini əhatə edir (Şəkərəliyev A.Ş., 2009: s.27).

Ölkənin iqtisadi potensialı dövlətin həyata keçirdiyi sosial-iqtisadi siyasətin əsasıdır. O, əhalinin bütün təbəqələrinin əməyi ilə yaradılır, ölkənin istehsal sistemi və xarici iqtisadi əlaqələri vasitəsilə tamamlanır və dəstəklənir. Mürəkkəb sosial-iqtisadi sistem kimi təkrar istehsal prosesi bir qrup mühüm makroiqtisadi göstəricilər vasitəsilə xarakterizə oluna bilər. Onların məcmusu ölkə iqtisadiyyatında real mövcud olan hadisə və proseslərin miqyasını və qarşılıqlı əlaqəsini müəyyən edir.

Son illərdə ölkəmizdə ardıcıl və çoxşaxəli islahatlar davam etdirilib, qeyri-neft ixracının artırılmasında kompleks stimullaşdırıcı tədbirlər həyata keçirilmiş, regionların tarazlı inkişaf etməsi təmin olunmuş, dövlət-sahibkar əlaqələrinin və biznes-investisiya şəraitinin inkişaf etdirilməsi, qeyri-neft sahəsinin inkişafı, özəl sektor üzrə təşviq alətlərinin tətbiq edilməsi, aqrar sektor, kiçik və orta sahibkarlığa dövlətin dəstəyi daima diqqət mərkəzində saxlanılmışdır.

Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında aparılan uğurlu və iqtisadi islahatların nəticəsi olaraq Azərbaycanda iqtisadi-siyasi sabitlik möhkəmlənməkdə və iqtisadi inkişafın dinamikası davam etməkdədir. Həyata keçirlən məqsədyönlü və mükəmməl siyasət nəticəsində 2019-cu il respublikamızın sosial-iqtisadi inkişafı davam etmiş, iqtisadi siyasətdə prioritet istiqamətlər sayılan makroiqtisadi sabitlik möhkəmləndirilməsi, qeyri-neft istehsalının və ixracının həcminin çoxalması, bölgələrin tarazlı inkişaf etməsi, səmərəli biznes və investisiya şəraitinin formalaşdırılması və başqa sahələrdə effektli irəliləyişlərə nail olunmuş, vətəndaşların rifah halının daha çox yüksəldilməsi təmin olunmuşdur.

Azərbaycanda həyata keçirilən düşünülən iqtisadi siyasətin özü maliyyə-büdcə-valyuta resurslarının davamlı olaraq artmasını təmin edir. Valyuta resurslarımız rekord həddə - 49 mlrd. dollara çatmışdır. Bu gün bir çxo dövlətlərin valyuta rezervləri azalsa da, Azərbaycanın valyuta resursları artır. Strateji ehtiyatlarının çoxalması Azərbaycan Respublikasında maliyyə sabitliyi və iqtisadi inkişafın təmin olunmasına önəmli rol oynayır. Valyuta ehtiyatlarının çoxalması

güclü sabitlik potensialı möhkəmləndirir. Valyuta ehtiyatlarının yüksək artma dinamikası güclü iqtisadi təhlükəsizlik yastığı təmin olunmasında ayrıca əhəmiyyət kəsb etməkdədir.

2019-cu il yürüdülmüş uğurlu siyasət ölkəmizin xarici borcunun azalmasına belə səbəb olubdur. İndi respublikamızın xarici borcu ÜDM-in 19 faizini təşkil etməkdədir. Dövlət başçısının tapşırığı əsasında xarici borcun yaxın illər ərzində daha çox azaldılması qarşıya vəzifə olaraq qoyulub.

Azərbaycanda biznes şəraitinin yaxşılaşdırılması, sahibkarlıq fəaliyyətinə dövlət dəstəyi tədbirlərinin çoxaldılması aprılan siyasətin başlıca prioritetlərindəndir. Prezident İ. Əliyevin iqtisadi islahatlar paketinin çərçivəsində sahibkarlıq sahəsinin inkişafı ilə əlaqəli qəbul etdiyi qərarlar iqtisadiyyat sahəsinin daima inkişafının təmin edilməsi nöqteyi-nəzərdən strateji xarakter daşıyır, eyni zamanda sahibkarlığın inkişaf etməsi üçün yeni dövrün başlamasına səbəb olub. Bu siyasətin nəticəsində Azərbaycanda biznes sahəsinin rəqabətqabiliyyətli məhsullar istehsal etməsi möhkəmlənməkdədir. Bu da qeyri-neftin ixracının stimullaşdırılmasına səbəb olmaqdadır.

Bölgələrin sosial-iqtisadi inkişafı ilə əlaqəli yürüdülmüş siyasət keçən ilin ilk 6 ayında dövlət iqtisadiyyatının şaxələnməsi və qeyri-neft saəhəsinin inkişafına möhkəm şərait yaradıb. Keçən 6 ayda bölgələrin sosial-iqtisadi inkişafı ilə əlaqəli aparılan siyasət bölgələr üzrə iqtisadi artımın böyüməsi, qeyri-neft sahəsinin inkişafının təmin edilməsi, infrastruktur və sosial xidmətlərin daha çox yaxşılaşdırılması, rayonların yeni istehsal, emal, xidmət sahələrinin əmələ gəlməsinə səbəb olmuşdur. Regionların inkişafı ilə əlaqəli IV Dövlət Proqramının təsdiqi və icrasına başlanması bölgələr və rayonlarda baş vermiş inkişaf, canlanma, iqtisadi fəallıq, sənaye müəssisələrinin qurulması son nəticədə işsizlik məsələsinin həllinə səbəb olur.

Bölgələrdə kiçik və orta sahibkarlığın genişləndirilməsi üzrə səmərəli olan sənaye məhəllələrinin yaranması davam etdirilir. Hazırda Neftçala və Masallıda sənaye məhəllələri fəaliyyət göstərməkdədir. Regionların inkişafı ilə əlaqəli strategiyanın davam etməsi bölgələrdə işsizlik səviyyəsinin azalmasına önəmli təsir

göstərib. Yeni müəssisələrdə açılmış iş yerlərinin sayının çoxalması işsizlik səviyyəsinin 1%-ə yaxın aşağı düşməsinə səbəbiyyət verib. Hazırda Azərbaycanda işsizlik səviyyəsi 5% təşkil edir ki, bu isə dünya göstəricisindən çox aşağıdır.

Azərbaycanda aparılan sosial-iqtisadi siyasətin kükündə sosialyönümlülük dayanır. Təsadüfi deyildir ki, iqtisadi inkişaf dinmaikası və modelinə əsasən dünyada diqqət mərkəzindəki ölkəmiz həm də sosial dövlət olaraq xarakterizə edilir (https://cabmin.gov.az/az/article/581/print/, 2018).

Ölkənin sosial siyasəti cəmiyyətimizin yaşayış fəaliyyətinin sosial-iqtisadi şərtlərin tənzimlənməsinə yönəldilmiş tədbirlər kompleksindən ibarətdir. O, gəlirlərin bölgüsündə olan bərabərsizliyin azaldılması, bazar iqtisadiyyatı mühitində cəmiyyətin üzvlərinin gəlirlərlə mülkiyyət sahəsində fərqlərin zəiflədilməsi, iqtisadi fəaliyyətin iştirakçılarının arasındaa ziddiyətlərin yumşaldılması və cəmiyyət daxilində sosial ixtilafların ortadan götürülməsinə yönəldilmişdir. Bazar iqtisadiyyatı sistemi üzrə sosial siyasət nəticəsində əhalinin əmlak sahəsindəki bərabərsizliyinin müəyyən şəkildə aradan götürülməsini nəzərdə tutan və vətəndaşların bütün təbəqələri üzrə eyni başlanğıc şərtlərin təmin edə bilən sosial prinsipləri gerçəkləşir.

Sosial siyasət keçid dövrü Azərbaycanın iqtisadiyyatının inkişaf konsepsiyasının tərkibi olmuş, vətəndaşların rifahı və onun tələbatlarının ödənilmə mənbələrinin tənzimlənməsi və idarə edilməsinə yönəldilməlidir. Sosial inkişaf üzrə hər bir iqtisadi tədbirlərin effekti kimi və öz-özlüyündə sosial təminatın iqtisadi artışına dayanıqlı, yüksək iqtisadi artma konsepsiyasının amili olaraq baxılır. Sosial inkişaf, sosial məsələlər, sosial tədbirlər, həmçinin proqramlar sosial siyasətin başlıca ideyası olub, ölkənin iqtisadi inkişafında, onun mövcud islahatların şəraitində tələbatının ödənilməsinin və sosial müdafiəsininin konkret üsulları ilə reallaşır. Ölkənin iqtisadi inkişafının sosial nəticəsi, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, yeni iş yerlərinin yaradılması və sosial ehtiyacın konkret ödənilməsinin yolları ilə müəyyən edilir.

Məhz yürüdülən sosial-iqtisadi inkişafetmə siyasətin, sosialyönümlü layihələr qanunauyğun nəticəsi olaraq, ölkəmizdə əhəlinin rifah halı daha çox yaxşılaşdırılıb,

vətəndaşların məşğulluq səviyyəsi yüksəlib, işsizlik əhəmiyyətli şəkildə aşağı düşüb. Son 13 il ərzində vətəndaşların yüksək sosial təminatının başlıca göstəricilərindən biri olaraq qəbul edilmiş yoxsulluq səviyyəsinin aşağıya salınması yönündə əldə edilən uğurlar da ayrıca qeyd edilməlidir. Dövlət siyasətinin başlıca hədəfi ölkəmizdə yoxsulluğun tamamilə ortadan qaldırılmasıdır. Və bu, özün çox qısa vaxtda yoxsulluğun 50 faizdən 5 faizə qədər düşməsində göstərib.

Əvvəlki illərdəki kimi respublikamızın 2019-cu il üzrə dövlət büdcəsi isə sosialyönümlü olmasına əsasən fərqlənir. Odur ki, Milli Məclisin keçirilmiş növbədənkənar sessiyası zamanı “Azərbaycanın 2017-ci ildə dövlət büdcəsi barədə” Azərbaycan Respublikası qanununda dəyişikliklər olunması haqda” qanun layihəsinin qəbul olunması ölkəmizdə aparılan sosial siyasətin davamlı xarakter daşımasını göstərir.

Ölkəmizin sosial siyasətinin mahiyyəti və bu yöndə əldə olunan nailiyyətlərdən bəhs edən zaman dayanıqlı iqtisadi inkişafın həmin prosesə vermiş olduğu töhfələrdən danışmaq gərəkdir. Aydındır ki, Ümummilli liderimiz Heydər Əliyevin əsasın qoymuş olduğu inkişaf siyasətinin Prezidentimiz İlham Əliyevin tərəfindən müasir çağırışlar və dövrün tələblərinə uğyun şəkildə müvəffəqiyyətlə davam etdirilməsi bütün sahələr üzrə davamlı tərəqqinin əldə edilməsini şərtləndirib. Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında aprılan ardicil islahatlar nəticəsində Azərbaycan son 13 il ərzində özünün iqtisadi azdlığının təmin edilməsi yolunda inamlı, həmçinin uğurlu addımlar atıb.

Dünyanın əksər inkişaf etmiş dövlələrinin iqtisadi böhran və maliyyə məsələləri ilə qarşı-qarşıya qalmış olduğu bir şəraitdə Azərbayanda sosial-iqtisadi sahədə gürülmüş işlər böyük nikbinlik yardır. Son 13 il ərzində dünya miqyasında ÜDM-in istehsalı üzrə ən yaxşı göstərici elə Azərbaycanda qeydə alınmışdır. Odur ki, 2004-cü ildən indiyə qədər ölkəmizdə ÜDM istehsalı dəfələrlə artıb ki, bu isə mühüm göstəricidir. Digər yandan, Azərbaycan regionda iqtisadi baxımdan ən qüdrətli ölkə olmuşdur. Əgər 2004-cü il Azərbaycanın iqtisadiyyatı Cənubi Qafqazın iqtisadiyyatının 50%-ni təşkil edirdisə, hal-hazırda bu nisbət səmərəli

şəkildə dəyişib. Odur ki, indiki zamanda region iqtisadiyyatının təqribən 75%-i ölkəmizin payına düşür.

Azərbaycanda geniş özəlləşdirmə proqramının yaradılması, iqtisadi aktivliyin artması, yerli və xarici investorların bu işlərə cəlb edilməsi və bu kimi qarşıda dayan başqa vəzifələrin müvəffəqiyyətlə həyata keçirilməsi də vətəndaşların məşğulluğunun artması və işsizliyin ortadan götürülməsi istiqamətində ayrıca əhəmiyyət kəsb etməkdədir (https://cabmin.gov.az/az/article/581/print/, 2018).

Azərbaycan iqtisadiyyatının templə inkişafı, büdcə gəlirinin çoxalması onun bütün istiqamətlər üzrə, adətən də sosial-mədəni resursların ödənilməsindəki rolunun artmasını zəruriyətə çevirmişdir. İndiki dövrdə ölkənin sosial funksiyasında maliyyə təminatının yaxşılaşması və vətəndaşların sosial-mədəni ehtiyyacının ödənilməsi üçün büdcə rolunun çoxalması dövlət büdcəsinin inkişafında önəmli xüsusiyyətlərdən biri olaraq diqqət mərkəzindədir.

Dövlətin diqqəti və qayğısı nəticəsində təhsil son illər yüksək inkişaf səviyyəsinə çatıbdır. Son 5 il ərzində ölkədə 1600-dən artıq yeni məktəb binası inşa edilib istifadəyə verilmişdir. Qeyd etmək gərəkdir ki, məktəb inşasının geniş vüsət alması üzrə Heydər Əliyev Fondunun ayrıca rolu vardır. Heydər Əliyev Fondu Prezidenti Millət vəkilimiz Mehriban xanım Əliyevanın təşəbbüsünün nəticəsində son illər həyata keçirilmiş proqramlar çərçivəsində son 5 ildə təqribən 44 min şagird yerinə malik 300 təzə məktəb binası inşa edilmiş, 47 məktəb, həmçinin uşaq bağçası əsaslı təmir olunmuş və müasir avadanlıqla təmin olunmuşdur.

Respublikada səhiyyənin inkişafı və əhalinin sağlamlığının qurnması üçün, dövlətin diqqəti və qayğısı nəticəsində bu sahəyə büdcə məsrəfləri ilbəil artır.

Əhaliyə göstərrilmiş tibbi xidmət sahəsi üzrə lazımi dövlət proqramlarına müvafiq olaraq məqsədyönlü işlər görübdür. Səhiyyəyə ayrılmış büdcə vəsaiti il boyu 6,4 faiz yüksələrək 708,0 mln. manat olmuşdur. Yüksək tələblərə cavab verə bilən tibb müəssisələrinin tikilməsi yönündə fəaliyyət davam etdirilib, 2018-ci il 13 dövlət proqramı, eyni zamanda tədbirlərinin maliyyələşdirilməsi üçün 161,0 mln. manat sərf olunmuşdur.

Mövcud sosial-iqtisadi durumun təhlili göstərir ki, aparılan davamlı islahatlar nəticəsində yaradılmış güclü iqtisadi potensial iqtisadiyyat sahəsinin dayanıqlığını artırmış və respublikada makroiqtisadi sabitliyi qoruyub saxlamışdır.

Milli iqtisadiyyat, eyni zamanda iqtisadiyyatın əsas sahələri üzrə strateji yol xəritəsi, konsepsiyalar və başqa dövlət proqramlarının çərçivəsində müəyyən olunmuş tədbirlərin icra edilməsi müvəffəqiyyətlə davam etdirilmişdir. Görülmüş işlər nəticəsində 2019-cu il yanvar-iyun ayları ÜDM real ifadədə 2.4 faiz yüksələrək cari qiymətlərlə 37.8 mlrd. manat olmuşdur. Adambaşına düşən ümumi daxili məhsulun məbləği 3828.1 manat olmuşdur.

# III FƏSİL. AZƏRBAYCANIN İQTİSADİ İNKİŞAF MODELİNİN PERSPEKTİVLƏRİ

## 3.1. Post-neft dövründə Azərbaycan iqtisadi inkişaf modelinin təkmilləşdirilməsi istiqamətləri

Postneft dövrünün çağırışlarına müvafiq olaraq, Azərbaycanın iqtisadiyyatı son 5 il ərzində səmərəli transformasiya mərhələsinə qədəm qoyubdur. İqtisadiyyat sahəsinin diversifikasiyası, inklüziv, balanslı, o cümlədən dayanıqlı iqtisadi inkişafın möhkəmlənməsi Azərbaycanın iqtisadiyyatı üzrə prioritet hədəflərə çevrilib və yeni iqtisadi modelin formalaşması üçün şərait yaratmışdır. Bu nöqteyi-nəzərdən son 5 ilin iqtisadi inkişafı ölkəmiz üçün yeni, dayanıqlı mərhələnin əsasın qoymaqla bölgələrin balanslı iqtisadi formalaşmasına pozitiv təsir göstərmişdir.

2014-cü il ikinci yarısındanetibarən, qlobal iqtisadi konyukturun ciddi şəkildə dəyişilməsi dayanıqlı inkişaf strategiyasında proseslərin sürətlənlənməsi, iqtisadiyyatın ehtiyyat asılılığının minimum səviyyəyə qədər azaldılması, həmçinin diversifikasiya tədbirlərinin genişləndirilmə zərurətini yaratmışdır. Müasir çağırışlara adekvat kimi 2016-cı il dekabr ayı davamlı inkişafı hədəfləmiş Strateji Yol xəritələri təsdiqlənib və 2017-ci ildən başlayaraq fəaliyyət planına müvafiq şəkildə, işlər davam etdirilibdir. Son 5 il ərzində həyata keçirilən institusional iqtisadi islahatlar üzrə diqqət artırılıb, dövlət strukturunun optimallaşması, əhəmiyyətliliyin artırılması kimi yöndlərdə önəmli qərarlar qəbul olunmuşdur. Həmçinin, ötən dövr üzrə dövlətin vəsaitlərindən məqsədli, şəffaf istifadə mexanizminin təkmilləşdirilməsi prioritetlər arasında olmuşdur (Əhmədov M., 2018: s. 2).

Milli iqtisadiyyat ilə iqtisadiyyatın başlıca sektorlarında strateji yol xəritəsinin təsdiq olunması haqqında Azərbaycan Respublikasının Prezidentinin fərmanı iqtisadiyyat sahəsinin inkişafı ilə əlaqəli yeni stratetji yanaşmanı meydana qoydu. Milli iqtisadiyyat, həmçinin iqtisadiyyatın əsas sektorlarında strateji yol xəritəsinin hazırlanması postneft dövrün yeni çağrışlarına müvafiq olaraq hazırlanaraq təsdiq edilmişdir. İqtisadiyyatın diversifikasiya istiqamətində aparılan islahatlar həmçinin,

yeni strateji baxışı tələb edirdi, belə ki, Starteji Yol Xəritəsi isə buna şərait yaratdı. Qeyd etməliyəm ki, Strateji Yol Xəritəsinin özü milli iqtisadi perspektiv və fərqli iqtisadi sahələrə dair məlumatları özündə birləşdirmiş sənəd olmaqla, hər bir önəmli sektor üzrə strategiyanın müəyyən edilməsinə imkan yaradır.

Yeni iqtisadi model ölkəmizdə investisiya mühitinin daha çox yaxşılaşdırılması, rəqabətin müdafiə edilməsi, iqtisadi liberallaşma tədbirinin davam etdirilməsi və həmçinin də kiçik və orta sahibkarlığın inkişaf etməsi kimi strateji hədəflərə sahibdir. Qeyd olunmalıdır ki, 11 sahə üzrə strateji xəritələr hazırlanması və təsdiq olunması məhz Azərbaycanın iqtisadiyyatında priortitet inkişaf yönlərinin müəyyənləşdirilməsinə şərait yaratmışdır. Strateji sənəd üzrə fiskal dayanıqlığın güclənməsi və daimi monetar siyasətin qəbul edilməsi, xərc və investisiya intizamının təmin edilməsi üçün mexanizmin hazırlanması, yeni iqtisadi model üzrə effektli pul siyasəti rejiminin tətbiq edilməsi, maliyyə bazarının stabilləşdirilməsi, özəlləşdirmə, həmçinin dövlət mülkiyyətindəki müəssisələrlə əlqəli islahatlar, iqtisadiyyat sahəsində dövlət sektorunun rolunun əhəmiyyətliliyinin artırılması üzrə ümumi yanaşma koordinasiyası, insan kapitalın inkişafı, təhsilin pillələrinin hamısında keyfiyyətin yüksəlməsi, əmək məhsuldarlığın yüksəldilməsini təmin etmək məqsədilə insan kapitalının dayanmadan inkişafının stimullaşlması, səmərəli biznes mühitinin inkişaf etməsi, təşviqedici şəraitin yaxşılaşdırılması nəticəsində biznes davamlılığının möhkəmlənməsi kimi hədəflər müəyyən edilmişdir. Aydın olduğu kimi, strateji sənəd üzrə hər bir hədəf məlum və strateji baxımdan əsaslandırılan formada təqdim olunmaqdadır və bu isə iqtisadi islahatların daha çox genişləndirilməsi üçün gerçək baza formalaşdırmaqdadır. Keçən dövr ərzində aparılan fəaliyyətlərin nəticəsində 2017-ci il əvvəlindən başlayaraq Azərbaycanın iqtisadiyyatında bərpaetmə prosesi sürətlənib, maliyyə bazarlarında volatil zəifləməsi məsrəfləri stimullaşdırmış və məcmu tələb həcmində artış dinamikası müşahidə olunmuşdur.

Məhz bu səbəbdən də dünya bazarı qiymətinin aşağı səviyyəli olsa da, 2017-ci il Azərbaycanın ÜDM əvvəlki ilə nəzərən 0,1 faiz qalxaraq 70,135 mlrd.manata çatıbdır. ÜDM 62,8 %-i iqtisadiyyatın qeyri-neft sektorlarında, 37,2 %-i də neft-qaz

sektorunda istehsal olunmuşdur. 2017-ci il qeyri-neft sektorunda da 2,7% , eyni zamanda nəqliyyat və anbar təsərrüfat sahələrində 8,5%, informasiya və rabitə sahələri üzrə 6,6%, turistlərin yerləşdirilməsi, həmçinin ictimai iaşə sahələrində 5,9%, aqrar təsərrüfat, meşə təsərrüfatı ilə balıqçılıq sahələrində 4,2%, ticarət, nəqliyyat vasitələrinin təmir sahələrində 2,5%, sosial və başqa xidmət sahələrində 1,5 % artım olubdur (Azərbaycan Dövlət Statistika Komitəsi, 2019).

Statistik göstəricilərdən aydın olur ki, ölkəmiz postneft dövründə yeni mərhələlərə qədəm qoymuşdur. Bu məhz neft sahəsindən asılılığın kəskin azalması daha davamlı, həmçinin dayanıqlı iqtisadi inkişafının formalaşdığı dövrdür.

